MƏHƏMMƏD RZA KƏRİMİ

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATINDA MƏŞHUR QADINLAR

*(Fars dilindən tərcümə)*

Tərcüməçi: Afət Rüstəmova

- 17894 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2014

83, 315Hzc/

Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Elmi Şurasının qərarı ilə nəşr edilir.

**Redaktor:** **Gövhər Baxşəliyeva**
*AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Məsiağa Məhəmmədi**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Səadət Şıxıyeva**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Məhəmməd Rza Kərimi. "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar".** Fars dilindən tərcümə. Tərcüməçi: Afət Rüstəmova. Bakı, "Zərdabi" nəşriyyatı, 2014, 96 səh.

Şimali Azərbaycan yenidən müstəqilliyinə qovuşandan sonra qonşu və dost İran İslam Respublikası, eləcə də onun tərkib hissəsi olan Cənubi Azərbaycanla keyfiyyətcə yeni münasibətlər yarandı. Bu münasibətlər ictimai, iqtisadi, siyasi, elmi və mədəni əlaqələrin bütün sferalarını əhatə edir və gün-gündən daha da yaxşılaşır.

Bu baxımdan təqdim olunan bu tərcümə əsəri ədalətsizcəsinə ikiyə bölünmüş xalqımızın elmi, mədəni və mənəvi birliyinin bərpası yolunda növbəti addım kimi dəyərləndirilə bilər. Düzdür, Şimali Azərbaycanda elmin müxtəlif sahələrində, eləcə də Azərbaycan mədəniyyəti və ədəbiyyatında qadınların fəaliyyəti və rolu barədə çoxsaylı və həm də sanballı tədqiqat əsərləri yazılmışdır. Bununla belə hörmətli cənublu qardaşımız, böyük alim və tədqiqatçı Məhəmməd Rza Kəriminin "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsərinin fars dilindən ana dilimizə tərcüməsi şimaldakı geniş oxucu kütləsini, xüsusən də sahə tədqiqatçılarını bu mövzuda İranda aparılan elmi-tədqiqat işlərinin bir nümunəsi ilə tanış etmək məqsədi daşıyır.

Ümid edirik ki, bu təqdimat faydalı olmaqla yanaşı, qarşıya qoyulan məqsədlərə xidmət edəcək və bu sahədəki yeni təşəbbüslərə təkan verəcəkdir.

**İSBN ISBN 978-9952-82604-3**

©AMEA Şərqşünaslıq İnstitutu, 2014

## MÜNDƏRİCAT

Məhəmməd Rza Kəriminin "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsərinin tərcüməsinə ön söz ........ 4
Müqəddimə ........ 8
Bəşəriyyətin formalaşması və cəmiyyətdə kişi və qadınların rolu ........ 9
Azərbaycan dastanlarında qadın surətləri ........ 15
"Dədə Qorqud" dastanında qadın surətləri ........ 33
"Koroğlu" dastanında qadın surətləri ........ 23
Aşıqların yaradıcılığında qadın surətləri ........ 43
Nizami Gəncəvinin əsərlərində qadın surətləri ........ 47
Xaqani Şirvaninin əsərlərində qadın surətləri ........ 62
Məhsəti Gəncəvinin əsərlərində qadın surətləri ........ 66
Hürufilik ədəbiyyatında qadın surətləri ........ 73
Məşrutə inqilabı və Azərbaycan qadınları ........ 77
Zeynəb Paşa ........ 78
Azərbaycanın qadın şairələri ........ 82
Aşıq Pəri ........ 82
Aşıq Sənəm ........ 84
Aşıq Bəsti ........ 84
Banu Ağabəyim ........ 85
Fatimə Xanımana ........ 86
Xədicə Sultan xanım ........ 86
Fatimə xanım Kəminə ........ 86
Heyran xanım ........ 88
Xurşidbanu Natəvan ........ 89
Müasir Azərbaycan şairələri ........ 93

## MƏHƏMMƏD RZA KƏRİMİNİN "AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATINDA MƏŞHUR QADINLAR" ƏSƏRİNİN TƏRCÜMƏSİNƏ ÖN SÖZ

Məhəmməd Rza Bağban Kərimi dövrümüzün böyük dilçi və ədəbiyyatşünas alimlərindən biridir. O, 1955-ci ildə qədim Təbriz şəhərində anadan olmuşdur. Kiçik yaşlarından elmə və araşdırmaya olan həvəsi zaman keçdikcə onu zəhmətkeş bir tədqiqatçı və böyük ustad kimi yetişdirmişdir.

M.R.Kərimi Təbriz Universitetinin Texnika fakültəsinin Mexanika şöbəsini bitirmiş və 25 il müddətində böyük müəssisələrdə baş direktor işləmişdir. Lakin o, daha çox yaradıcılıqla məşğul olmuş, "Omide-Zəncan" ("Zəncanın ümidi") həftəlik (1993-2002-ci illərdə), "Peyke-Azər" ("Azəri xəbərləri") aylıq (2000-2004-cü illərdə) və "Bəhare-Zəncan" ("Zəncanın baharı") həftəlik (2000-2006-cı illərdə) jurnallarında baş redaktor kimi çalışmış, Azərbaycan dili və ədəbiyyatına dair çoxsaylı tədqiqat əsərləri yazmışdır.

Bu böyük şəxsiyyət pedoqoji fəaliyyətdən də kənarda qalmamış, Zəncan və Kürdüstan universitetlərində türk dili və ədəbiyyatı fənnindən dərs demişdir.

M.R.Kərimi 2008-ci ildə Türkiyənin Atatürk Universitetində "Azərbaycan dili və ədəbiyyatı tarixi" üzrə mühazirələr oxumuş, beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

Böyük azərbaycanşünas alim M.R.Kərimi aşağıdakı kitabların müəllifidir:

1. İmadəddin Nəsimi. Həyatı və əsərləri. Təbriz, 1978.
2. Qaçaq Nəbi. Zəncan, 1989.
3. Şəhriyarın "Səhəndiyyə"si. Zəncan, 1994.
4. Turk dili - İran kimliyi. Zəncan, 1994.
5. Türk dili qrammatikası. Zəncan, 1994.
6. Qazi Əhməd Burhanəddinin "Divan"ı. Zəncan, 1996.
7. Hakaninin "Divan"ı. Zəncan, 1996.
8. Nəsiminin "Divan"ı. Zəncan, 1996.
9. Nizaminin "Divan"ı. Zəncan, 1996.
10. Atabətül-həqayiq. Zəncan, 1996.
11. Koroğlu. Təbriz, 2002.
12. "Koroğlu" qəhrəmanlıq dastanı. Tehran, 2002.
13. Azərbaycan ədəbiyyatı ve mədəniyyətində qadın surəti. Tehran, 2002.
14. Nizami Gəncəvi. Tehran, 2003.
15. Qarabağ-şairlər məskəni. Zəncan, 2003.
16. Müasir Azərbaycan ədəbiyyatı. Təbriz, 2006.
17. Elimizin aciyan yarasi. Tehran, 2010.
18. Kutatqu bilik. Tehran, 2010.
19. Elimizin mübariz alimi. Tehran, 2010.
20. Elimizin ürək sızıltısı. Tehran, 2010.
21. Elimizin mehriban müəllimi. Tehran, 2010.
22. Elimizin odlu dili. Tehran, 2010.
23. Elimizin qocaman şairı. Tehran, 2011.
24. Elimizin şirin sözlü şairi. Tehran, 2011.
25. Elimizin Şeydası. Tehran, 2011.
26. Elimizin elm ve əxlaq müəllimi. Tehran, 2011.
27. Elimizin sönməz şairi. Tehran, 2011.
28. Elimizin şeir Şəhriyari. Tehran, 2011.

29. Elimizin nəğməkarı. Tehran, 2011.
30. Azərbaycan ədəbiyyatı tarixi (12 cilddə). Tehran, 2012.
31. "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar". Tehran, 2012.
32. Elimizin tənnaz şairi. Tehran, 2013.
33. Elimizin parlaq ulduzu. Tehran, 2013.
34. Elimizin barışmaz şairi. Tehran, 2013.

İran tədqiqatçısı Vijeni Meh M.R.Kərimiyə həsr etdiyi "Elimizin çağdaş dil uzmanı" əsərində (2010) onun dilçiliyə aid məqalələri yer almışdır.

Kəriminin hörmətli oxuculara tərcüməsi təqdim olunan "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsərinin "Müqəddimə"sində müəllif bəşəriyyətin formalaşması və cəmiyyətdə kişi və qadınların rolundan söhbət açır, tarixən bir çox hallarda qadına olan yanlış münasibətdən bəhs edir və mühitindəki mövcud vəziyyəti ürək yanğısı ilə dilə gətirərək yazır: "Bu gün də qadınlarımızın bir çoxu geridə qalmış əqidə və düşüncələrin, adət və ənənələrin qurbanı olmaqdadır".

"Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsəri Azərbaycan dastanları, xüsusən də "Kitabi-Dədə Qorqud" və "Koroğlu", aşıqlarımızın, eləcə də Nizami, Xaqani və Məhsəti kimi klassiklərimizin yaradıcılığındakı qadın surətlərinin təhlilinə, eləcə də bir çox qadın aşıq və şairlərimizin yaradıcılığına həsr olunmuş elmi-tədqiqat əsəridir. Hürufilik ədəbiyyatında yer almış bəzi qadın surətlərindən də danışan müəllif Məşrutə inqilabında qadınlarımızın oynadığı əhəmiyyətli rolu da qeyd edir və Məşrutə inqilabının qadın qəhrəmanlarının nümunəsi kimi Zeynəb

Paşadan söz açır. Əsərdə Aşıq Pəri, Aşıq Sənəm, Aşıq Bəsti, Banu Ağabəyim, Fatimə Xanımana, Xədicə Sultan xanım, Fatimə xanım, Kəminə, Heyran xanım və Xurşidbanu Natəvan kimi qadın aşıq və şairələrin yaradıcılığı haqqında məlumatlar da yer alır.

Ədalət naminə qeyd olunmalıdır ki, M.R.Kəriminin "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsərinin mövzusu və möhtəviyyatı yeni deyildir, yəni Şimali Azərbaycanda elmin müxtəlif sahələrində, eləcə də Azərbaycan mədəniyyəti və ədəbiyyatında qadınların fəaliyyəti və rolu barədə çoxsaylı və həm də sanballı tədqiqat əsərləri yazılmışdır. Lakin bununla belə böyük ustad Məhəmməd Rza Kəriminin "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" əsərinin fars dilindən ana dilimizə tərcüməsi şimaldakı geniş oxucu kütləsini, xüsusən də sahə tədqiqatçılarını bu mövzuda İranda aparılan elmi-tədqiqat işlərinin bir nümunəsi ilə tanış etmək baxımından əhəmiyyətlidir və xalqımızın elmi, mədəni və mənəvi birliyinin bərpasına xidmət edir.

Son olaraq bu kitabın ərsəyə gəlməsində zəhməti olmuş hər kəsə, xüsusən filologiya elmləri doktoru Şəfəq xanım Əlibəyliyə və elmi işçi Şəmsi Əhmədova öz dərin minnətdarlığımı ifadə etməyi özümə borc bilirəm.

## MÜQƏDDİMƏ

Bizim tarix kişilərin tarixidir. Tarixçilərimiz siyasi hadisələrin, şahların və kişi xadimlərin həyatının şərhinə səy göstərmişlər və qadınlar ölkə əhalisinin yarısını təşkil etsələr də, həmişə kölgədə qalmışlar. Bu gün də qadınlarımızın bir çoxu geridə qalmış əqidə və düşüncələrin, adət və ənənələrin qurbanı olmaqdadır, yəni qadınlara qarşı zorakılıq bir çox hallarda bu gün də davam edir. Əlbəttə, cəmiyyətdə qadına qarşı yanlış münasibəti həyatdan, məişətdən və mədəniyyətdən birdəfəlik silmək mümkün deyildir. Bu kitabda qadınların həyatlarının bütün tərəflərinə toxunmaq imkanı da yoxdur. Digər tərəfdən, cəmiyyətə hakim olan etiqadlar, adət-ənənələr və mövhumat, evlənmənin müxtəlif məsələləri, boşanma haqqı və ondan doğan problemlər, dulluq, çoxarvadlılıq və cəmiyyətdə qadınlara əngəl törədən minlərlə başqa bəlalar ayrıca bir kitabın mövzusudur. Bu kitabda qarşıya qoyulan məqsəd tarix nöqteyi-nəzərindən bizim ana-bacılarımızın evdə, hərəmxanada və digər yerlərdəki acınacaqlı vəziyyətinin tədqiqi, araşdırılması və nəticə çıxarılması deyildir. Əksinə, bu kitabda qadınların yalnız onlara nüfuz gətirən uğurlarına, ucalığına, şərəf və namusuna, qüruruna nümunə olan xanımlardan söhbət açacağıq. Əlinizdəki bu kitab on illər bundan qabaq başa çatmış zəhmətin məhsuludur. O, vaxtilə məqalələr şəklində hissə-hissə "Ümidi-Zəncan" jurnalında çap olunmuşdur. Şübhəsiz ki, bu sahədə deyilməmiş çoxlu sözlər və fikirlər vardır. Onların da zaman-zaman deyiləcəyinə və yazılacağına və sonrakı nəşrlərə əlavə olunacağına ümid edirik. Ona da inanırıq ki, hörmətli oxucuların rəy və iradları gələcək işlərimizdə yolumuza çıraq tutacaqdır.

***M.KƏRİMİ***

## BƏŞƏRİYYƏTİN FORMALAŞMASI VƏ CƏMİYYƏTDƏ KİŞİ VƏ QADINLARIN ROLU

Şərqdən Qərbə qədər qadına edilən zülm və zorakılığın kökləri tarixən bəşər cəmiyyətinin istismara əsaslanmış münasibətlərində gizlənmişdir. Bəzi ideoloqlar tez-tez istifadə etdikləri "cins" sözünü öz istismarçı düşüncələrinin şərhi üçün kəşf etmişlər. Məqsədləri qadın və kişi arasında ayrı-seçkilik salmaqla özlərinin ikiqat artmış istismarını davam etdirməkdir. Kapitalizm cəmiyyətində elm də istismarçıların əlində bir vasitədir. Biologiya və antropologiya kimi iki elmin köməyi ilə həqiqəti aşkar etmək əvəzinə, onu ört-basdır etməyə cəhd olunur. Cəfəngiyyat yayanların fikirlərinə görə, qadınlar bədən quruluşu və analıq vəzifələrinə görə fiziki cəhətdən kişilərdən zəifdir. Bu məsələ elə qoyulur ki, qadının acizliyi təbiətən verilmişdir və keçmiş dövrün əbədi mirasıdır. Guya, qadın təbiətən kişidən asılıdır və müdafiəsiz yaşaya bilməz. Başqa sözlə desək, təbiət və kainat qadını daimi məhkumluğa və həqirliyə məhkum etmişdir.

Aydındır ki, qadın və kişi cinsi fiziki cəhətdən bir-birindən fərqlidir. Lakin bu zülmü, yəni cinsi bərabərsizlik məsələsini Allah və təbiət qadına rəva bilməmişdir. Əksinə, bu zülm ilkin bəşər cəmiyyətlərində mövcud olmamışdır. O, sonradan patriarx icmalarda meydana gəlmiş və formalaşmışdır.

Təbiət və insanı Allah yaratmış, onların mövcudluğunu və həyatlarının davamını nizamlamışdır. Əsasən, heyvanlar təbiətin bəndəsidir. Lakin bu münasibət yanlış olaraq insanlara, xüsusən də qadınlara şamil edilmişdir. Zaman keçdikcə insan səy və təlaş yolu ilə təbiətə nüfuz

etmiş və ona nəzarəti ələ almışdır. Bu gün antropoloq alimlər, o cümlədən Şerud Vaşburn, Vilyam Havelz, Kennet Oakli, Qoldon Çayld insanın təkamül yolu ilə heyvandan əmələ gəlməsi nəzəriyyəsini ortaya atmışlar. Bu alimlərin fikrincə, insan öz yaşayışında icad etdiyi dəyişikliklərlə yanaşı, öz təbiətində də dəyişikliklər yaratmışdır. Əsas odur ki, insanın ictimai təbiəti onun heyvani reaksiyasını əvəz etmişdir. Guya insan özünün yaradıcı fəaliyyətləri ilə formalaşmış və o qədər təkmilləşmişdir ki, artıq öz fiziki və bioloji quruluşunun bəndəsi deyildir. Marşal Salinzın dediyi kimi: "İnsan cəmiyyətinin bioloji amillərin birbaşa nəzarətindən azad olması böyük bir dəyişiklik idi. İnsanın ictimai həyatı onun bioloji quruluşu vasitəsilə deyil, insanın mədəniyyəti vasitəsilə təyin olunur". Bu nəzəriyyə "Qadının bədən quruluşu onun taleyini təyin edir" əfsanəsini unutdurur.

Tarix şahiddir ki, kişilər qadınlara sahib olmaq üçün öz həmcinsləri ilə vuruşurlar. Bu cəngavərliyin yalnız bir əlamətidir və kişi cinsi bu əlamətə görə qadına çatmağa meyl göstərir. Qadınlar analıq hissinə görə öz övladı ilə bir yerdə olur və hər zaman ana-övlad münasibətini inkişaf etdirir və cəmiyyəti birgəyaşayış əsasında qururlar. Heyvanat dünyasında da görürük ki, erkək heyvan yalnız özünü qorumaq haqqında düşünür və dişi heyvan analıq hisslərinə görə özünü və balalarını qorumaq qayğısına qalır. Buna görə dişi heyvan, adətən, erkək heyvandan daha ağıllı, daha zirək və daha hiyləgərdir.

Ovçular etiraf edirlər ki, balaları ilə olan erkək heyvan daha ehtiyatlı və daha təhlükəlidir. Robert Ardrey, Robert Brifalt, Ser Salli Zukerman kimi alimlərin nəzəriyyələri bizim sözlərimizi təsdiq edir. "Zahidlik

nəzəriyyəsi" dindarlarının çıxartdıqları nəticələrə görə qadınlar həyat üçün mübarizədə yaratmaq bacarığına görə xüsusi imkanlardan faydalanırlar. Bu səbəbdən meymundan insana keçmə mərhələsində qadın daha çox yuvada (evdə) oturdu, kişilər isə ov (iş) dalınca gedərək rəhbərliyi öz öhdələrinə götürdülər. İş fəallığı ilə təbii həyat tərzindən insani həyat tərzinə keçildi. İnsan doğum və övlada sahib olmaq yolu ilə heyvan dünyasından qədim dövr insanlarının matriarxat cəmiyyətinə çatdı. Amma indi qadınlar patriarxat dövründə insani dəyərlərini əldən vermək hesabına fəal ictimai həyatda yalnız analıq öhdəliklərini yerinə yetirməyə məcburdurlar.

Ananın tarix boyu cəmiyyəti qorumaq kimi böyük vəzifəsi olmuşdur. Sonralar ana üçün ata adlı bir həmkar tapıldı və bu həmkarlıq o zaman başladı ki, kişilər heyvani əlamətlərdən azad oldular və get-gedə müəyyən insani sifətləri əldə etdilər. Əslində kişilərin belə dəyişməsində qadınların böyük rolu olmuşdur.

Qadınlar kənd təsərrüfatını kəşf və ixtira etdilər və zaman keçdikcə bəzi heyvanları əhliləşdirməyi və onların imkanlarından yemək, geyim və iş üçün istifadə etməyi bacardılar. Vil Durant ibtidai cəmiyyətlərdə iqtisadi irəliləyişlərin ən böyük hissəsinin məhz qadınların əli ilə baş verdiyini yazır.

Sap əyirmə, toxuculuq, tikiş, dulusçuluq, səbətçilik, dülgərlik, evtikmə və s. qadınların kəşflərindəndir. V.Durant səmimiyyətlə qeyd edir ki, ailə ocağını da qadın yaratmış və tədricən kişi qadını əhliləşmiş heyvanların siyahısına daxil etmiş, cəmiyyətin ədəb və davranış qaydalarını ona öyrətmişdir.

Qadın ibtidai cəmiyyətdə əkinçilikdə, heyvanları ram etməkdə, övladların qayğısına qalmaqda, ilk insan cəmiyyətini təşkil etməkdə və müxtəlif digər həyati əhəmiyyət daşıyan məsələlərdə üstünlüklər əldə etmişdir. Yemək əldə etməyin çətin olduğu bir zamanda ailə üzvləri arasında elə bir fərq mövcud deyildi. Lakin işləmək ortaya çıxanda ana qabağa çıxaraq valideynlərdən, övladlardan, bacılardan və qardaşlardan ibarət olan öz kiçik cəmiyyətini yaratdı. Bu zaman ana onların arasında qida bölüşdürən başçı rolunu oynayırdı. O, həm də kişilər ov üçün çölə çıxanda odu qorumaq, bişirib-düşürmək, bitkiləri, meyvə və digər qidaları toplamaqla məşğul olurdu. Ov etmək, ailə sahəsini qorumaq, çətin və ağır işlərin məsuliyyəti isə kişilərin öhdəsində idi. Bu dövr matriarxat dövrü adlanırdı.

Lakin matriarxat dövrü çox davam etmir. Çünki kişi fiziki gücünə görə ailəni qorumaqdan ötrü başqa qəbilələrin hücumu qarşısında dayanır və üstünlük qazanır. Bu dövrdə müdafiə və müharibə bir borc olduğundan kişilər müdafiəyə başçılığı öhdələrinə götürürlər. Bu zaman ailəyə başçılıq da kişinin əlinə keçir. Zaman keçdikcə daha çox fiziki güc tələb edən işlər, o cümlədən köç və məskunlaşma, hücum və müdafiə və s. daha çox əhəmiyyət kəsb edir. Beləliklə, atanın başçılığı daha əhəmiyyətli olur, lakin hələ də qadın və kişilər bərabər hüquqlardan faydalanırdılar.

Matriarxatın məhv olmağı qadın cinsinin tarixi məğlubiyyəti idi. Kişi yalnız qəbilə yox, bəlkə evin hökmranlığını da ələ aldı və qadın tənəzzül edərək kölə vəziyyətinə düşdü. Qadının ictimai dəyəri övladlarının, xüsusən oğlan cinsindən olan övladlarının sayına görə idi

və bəzən kişilər çoxsaylı arvadlarını bir tavan altına yığırdılar. Zaman keçdikcə təkarvadlılıq yarandı. Bu, insanların qazandığı böyük tarixi nailiyyət və irəliləyiş idi

İşin qadınlar və kişilər arasında bu tərzdə bölünməsi və tarixi inkişaf dünyanın bütün millətləri arasında az və ya çox bərabər olmuşdur. Əcdadlarımızdan əlimizə çatmış əsərlərdə deyilir ki, qadınlar azadlıqdan yaxşı faydalanmışdılar. Şumer qadınları hətta məlcykə məqamına çatmışdılar. Avral-Altay türkləri arasında hakim və hökmdarlardan çoxu qadınlar idi. Qadınlar kişilərlə çiyin-çiyinə döyüşlərdə vuruşur, öz torpaq və tayfalarını müdafiə edirdilər. Keçmişlərdən bizə çatmış əsərlər onu göstərir ki, türk qadını və kişisi əl-ələ verərək həyatı və idarəçiliyi dəyişirdilər.

Sarmatlar və saklardan dövrümüzə çatmış əsərlər göstərir ki, qadınlar kişilər ilə bərabər hüquqa malik olmuş və qarşılıqlı bərabər ehtiramdan yararlanmışlar. Üç min il bundan qabaq zinyət əşyaları, müxtəlif insan və heyvan, xüsusən at və maral heykəlləri, naxışlı saxsı qablar, xalça-palaz, kəmər, sancaq, boyunbağı və s. şeylərin türklər yaşayan torpaqlarda olması onu göstərir ki, istər kişilər, istərsə də qadınlar enli açıq paltar geyirdilər. Şalvar kişi və qadınların əsas paltarlarından olmuşdur.

Miladdan 1500 il qabaqkı mədəniyyət abidələri şumerlərin mədəniyyətinin Qafqazın o tayının mədəniyyəti ilə oxşarlığını ortaya çıxarır. Bu mədəniyyətin mərkəzi Gəncə və Qarabağ olmuşdur. Miladdan yeddi əsr əvvələ aid olan abidələr sitlərin Qafqazda və Kiçik Asiyada məskunlaşmasından xəbər verir. Arxeoloqların çoxu Qafqazda tapılmış və tuncdan olan maddi-mədəniyyət nümunələrinin böyük bir hissəsini sitlərə və

şumerlərə aid edirlər. Alimlər və arxeoloqlar bu abidələrə istinad edərək o zaman qadınlarla kişilərin hüquqlarının bərabər olmasını bəyan edirlər. Həmçinin Çin abidələrində, xüsusən bu ölkənin məşhur tarixçisi Sumatsin əsərlərində miladdan qabaqkı əsrlərdə Hivəng Nuha dövlətində qadınların cəmiyyətdəki vəziyyətindən danışılır. Sumatsin qadınların şücaətindən, təmizliyindən və cəngavərliyindən söz açır və bildirir ki, onların gözəl libası bütün bədənlərini örtürdü və ictimai düşüncəyə görə oğlanla qız arasında fərq yox idi. Qızlar oğlanlar kimi döyüş meydanında igidlik göstərir, qılınc oynadır və at çapırdılar. Düşmən qəbilə və tayfaların hücumlarından müdafiədə qızlar və oğlanlar bir-birindən fərqlənmirdilər.

Bu arada tarix boyu dünyanın bütün türk qəbilələri arasında mövcud olmuş təkarvadlılıq diqqəti cəlb edir. Yalnız islamın yaranmasından sonra türklər arasında da çoxarvadlılıq yayılmağa başlamışdır.

## AZƏRBAYCAN DASTANLARINDA QADIN SURƏTLƏRİ

Azərbaycan dastanları üç hissədən ibarətdir; birinci hissə qəhrəmanlıq dastanlarıdır. Bildiyimiz kimi, "Dədə Qorqud" və "Koroğlu" dastanları bu cür dastanlardandır. Digər hissə sırf aşiqanə dastanlardır və üçüncü hissə qəhrəmanlıq-məhəbbət dastanlarıdır. Əgər qəhrəmanlıq dastanlarında qadınlar kişilərlə çiyin-çiyinə döyüş meydanlarında rəqib tələb edirlərsə, aşiqanə dastanlarda onlar eşq və məhəbbətə vəfalı şəxsiyyətlərdir. Qəhrəmanlıq-məhəbbət dastanlarında isə qadınlar ürəklərini eşq və məhəbbətə bağladıqları halda, döyüş sənətindən də bəhrələnirlər. Məhəbbət dastanlarının əsas qəhrəmanları ümidsizlik, həsrət, hicran və dərdə dözən insanlardır. Əgər Selcan Xatun, Banu Çiçək, Nigar və Həcər vüsalın maneəsini aradan qaldırmaq üçün əllərinə qılınc alırlarsa, Əsli, Pəri, Şah Sənəm, Sara və Gülgəz saz və söz sənətini nümayiş etdirməklə öz rəftarları və fədakarlıqları ilə mübarizə aparırlar. Əsli xristian qızıdır, qəlbini müsəlman Kəramin eşqinə bağlayır və bu eşqə vəfalı qalır. Sara özünü coşqun çaya atır ki, qadın nəcibliyi, səmimiyyəti, paklığı və gözəlliyindən əfsanə yaratsın və həqiqətən, bu qəhrəmanlar həyatları ilə öz elinin insanlarının həyatını xeyirxahlıq, məhəbbət və gözəlliyə boyamışlar.

Dastanları aşıqlar danışırlar və əslində onları xalqdan alır və ədəbi-bədii tərtibatla poetik bir dillə zəngiləşdirərək, uyğun saz havasının xoş sədaları altında yenidən xalqa təqdim edirlər. Aşıqlar mədəniyyətin danışan, oxuyan və rəqs edən dili, xalqın mənəvi və ruhi

ehtiyacıdır. Onlar öz hekayələri ilə insanların yarasına məlhəm qoyur, diyar-diyar gəzir və əllərində saz qəm-qüssədən danışır, xalqın qəhrəman və fədakarlıqlarını dastan şəklində bəyan edirlər və bu dastanlar insanlara ümid bəxş edir, onları işıqlığa, haqq və ədalətə, səmimiyyətə, insanlara hörmətə, eşqə, vəfadarlığa, insanpərvərliyə və vətənpərvərliyə çağırır.

Qəhrəmanlıq və məhəbbət dastanlarında dastanın qəhrəmanı öz sevgilisinə çatmaq üçün, bir tərəfdən, qılınc çəkərək düşmənlərlə mübarizə edir və digər tərəfdən, saz və söz sənətindən yararlanır. Bu dastanlardan "Şah İsmayıl", "Novruz və Qəndab", "Tahir Mirzə və Zöhrə", "Lətif şah", "Şahzadə Seyfülmülük", "Məhəmməd və Güləndam" və başqaları daha geniş yayılmışdır. Azərbaycanın enişli-yoxuşlu tarixindən götürülmüş bu dastanların arxasında xalqın istəkləri və zəhmətkeş kütlələrin arzuları dayanır. "Şah İsmayıl" dastanında adil, igid bir şahın obrazı Şah İsmayıl Xətainin tarixi siması əsasında yaranmışdır. Çaldıran döyüşü və başqa tarixi hadisələr onda iftixar və kədərlə xatırlanmışdır. Belə dastanlarda, xüsusən "Şah İsmayıl" dastanında qadın surətləri çox cazibəli və sevimlidir. Bilirik ki, Şah İsmayıl Çaldıran döyüşündə çoxlu cəsarət, şücaət və qəhrəmanlıq göstərsə də, öz qəhrəmanlarından çoxunu, o cümlədən həyat yoldaşının atası Əbdi bəyi itirmişdir. Onlar bu döyüşdə şəhid olmuş və Şah İsmayıl onlardan ötrü göz yaşı tökmüşdür. Şah İsmayılın həyat yoldaşı Taclı xanım da bu döyüşdə iştirak etmiş, igidliklər göstərmiş, yaralanmış və döyüş qurtardıqdan sonra qardaşı Durmuş xanla birgə Şah İsmayılın yanına gələrək

şahın gözlərini yaşla dolu görəndə ona təskinlik vermiş və demişdir:

İranın şahısan, Türküstan xanı,
Mürşidi-kamilsən, cahanın canı.
Əbdi bəy ki, oldu şahın qurbanı,
Taclı bəyim sənə qurban, ağlama!

Şah İsmayıl dastanında başqa üç qadın surəti də təsvir olunmuşdur: Gülzar, Pəri və Ərəbzəngi. Şah İsmayıl ovlaqda bir ceyranı izləyir və ceyran bir çadıra pənah aparır. Şah İsmayıl çadıra yaxınlaşanda Gülzarla üzləşir, onlar bir-birlərini görər-görməz ürəkləri bir-birinə bağlanır. Lakin Gülzar karvanla gedəsidir. Şah İsmayıl bir müddətdən sonra Gülzarın arxasınca yollanır ki, bu pak, məsum və gözəl qızı əldə etsin. Yolda bir qalaya çatır və orada müvəqqəti gecələmək istəyir. Qalanın darvazasını tapmır, divarı yarıb, qalaya daxil olur və Pəri ilə üzləşir. Pəri yeddi qardaşın yeganə bacısıdır. Kafir şahzadə Pərini almaq üçün elçi göndərmiş, lakin Pəri Kafirin həyat yoldaşı olmaq istəməmişdir. Buna görə düşmən qoşun çəkir ki, Pərini zorla alsın. Yeddi qardaş da qalanın darvazalarını daşla tutub, kafirlərin döyüşünə gedirlər. Şah İsmayıl əhvalatı eşidərək, yeddi qardaşın köməyinə gedir və kafirləri məğlub edərək qələbə çalır. Qardaşlar İsmayıl və Pərinin sevgisini görəndə Pərini ona verirlər. Lakin Şah İsmayıl ürəyini Gülzara veribdir. Pəri, Şah İsmayılın ürəyini başqasına verdiyini biləndə ona mane olmur, onu yola salır. Gülzarın diyarına getmək üçün iki yol mövcuddur: bir yol üç ay davam edir və

148794
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

təhlükəsizdir və başqa bir yol on gündür, lakin Ərəbzəngi adlı yolkəsən bu yolu kəsmişdir.

Ərəbzəngi yolun arasında bir qala tikdirib və yolu karvanlara bağlamış bir pəhləvandır. Yoldan keçən hər bir kəs onun cənginə düşür. Ərəb Zəngi paklıq, nəciblik və qisas mücəssəməsidir. O, insanlardan xəyanətdən başqa bir şey görmədiyi üçün harada murdar və əyyaş bir adam tapırsa, başını bədənindən ayırır. Bütün xalq onu pəhləvan sayır və bilmir ki, o, kişi libasında qadındır.

Şah İsmayıl çarəsiz qalaraq yaxın yolu seçir və naçar Ərəbzəngi ilə üzləşir. Ərəbzəngi əhd etmişdir ki, hər kəslə üzləşərsə, əgər məğlub etsə, öldürəcəkdir, əgər məğlub olsa, onunla evlənəcəkdir. Şah İsmayıl onunla üzbəüz gəlir. Onlar bir-biri ilə güləşir, qılınc oynadır, nizə atır, toppuz vururlar, lakin heç biri qələbə çala bilmir. Gecə düşür. Ərəbzəngi Şah İsmayılı qalaya çağırır və onu qonaq edir. Yatmaq vaxtı çatanda Ərəbzəngi öz otağına gedir. Şah İsmayılı yuxu aparmır, qalanın hər yerini gəzir və bir kimsə tapmır. Bir otaqda görür ki, gözəl bir qız yataqda uzanmış və yatmışdır. Onun başının üstündə Ərəbzənginin paltarını görəndə başa düşür ki, Ərəbzəngi kişi deyil, igid və gözəl bir qadındır. Sabahısı gün səhər döyüş yenidən davam edir və Şah İsmayıl qalib gəlir və Ərəbzəngidən xahiş edir ki, bu sirdən onu agah eləsin. Ərəbzəngi deyir ki, o, bir hökmdarın qızıdır, qardaşı qırx nəfər haramzadə ilə hər gecə eyş-işrətdə, kefdə və başqalarının namusuna toxunmaqda olduğu üçün o, qərara gəlmişdir ki, belə adamların nəslini yer üzündən silsin. Şah İsmayıl bu əhvalatı eşidir və ürəyini ona bağlayır, lakin yadına düşür ki, ürəyini Gülzara tapşırmışdır. Ərəbzəngi onun

dostu və yarı olur və onlar Gülzarı tapmaq üçün birlikdə yola düşürlər. Ərəbzəngi gözəl bir dost və yoldaş rəmzi və nümunəsidir. Onlar birlikdə Gülzar olan diyara çatırlar. Gülzarı şahın əlindən alıb, özləri ilə götürürlər. Ərəbzəngi Şah İsmayılı çoxlu çətinliklərdən qurtarır və ömrünün sonuna qədər ona vəfalı olur.

Ərəbzəngi mahir bir qılınc oynadandır. Şah İsmayıla olan eşqin gücü ilə onun qılıncı daha da kəsərli olur və Şah İsmayılın yolunda canından və başından keçir. Gülzar Şah İsmayılla birgə öz diyarlarına çatanda yorğunluqlarını almaq üçün istirahət etməyə qərara verirlər. Şah İsmayıl və Gülzar dərin yuxuya gedirlər, lakin Ərəbzəngi təklikdə onları qoruyur və düşməni məhv edir.

Gördüyümüz kimi, bu dastanda da, bütün Azərbaycan dastanlarında olduğu kimi, sədaqət, vəfa, eşq və məhəbbətin müqəddəsliyi tərənnüm edilir və insanlar eşq yolunda hər cür əzab-əziyyəti can-başla qəbul edir və eşqdən qəhrəmanlıqlar yaradırlar. Şah İsmayıl Gülzarı gətirmək üçün yola düşür və yolda iki gözəllə rastlaşır, lakin qəhrəmanın qəlbində başqasının eşqi var, buna görə öz eşqinə xəyanət etmir və hər iki gözəlin Pəri və Ərəbzənginin qarşısında öz məşuqunun mövcudluğunu etiraf edir. Şah İsmayıl elə qəhrəmandır ki, sevgilisinə çatmaq üçün öz qılıncına arxalanır. Əgər Aşıq Qərib, Aşıq Abbas, Aşıq Qurbani, Məcnun və Kərəm yalnız eşq və məhəbbətə bağlanıblarsa, Şah İsmayıl eşqin yolunda qılınc oynadır və Ərəbzəngi ilə rastlaşanda belə deyir:

Çox danışma, Ərəb, doymuşam cana,
Dava istəyirsən, girək meydana.

Sıyirərəm qılıncı, bularam qana,
Yol ver, Ərəb, yol ver, incitmə məni!

Ərəb Zəngi surətindən başqa Pəri surəti də bu dastanda gözəldir. Pəri də bu qəbildən olan yeganə surət deyil, bəlkə belə bir surət başqa Azərbaycan dastanlarında çoxdur. "Şahzadə Əbülfəz" dastanındakı Rəna xanım surəti belə cazibədar surətlərdəndir. Bu dastanı oxuyanda və dinləyəndə böyük məhəbbətə və eşqə, qadının namus və ismətinə, onun dostluğuna və sədaqətinə heyran qalırsan. Şahzadənin başqa bir qıza eşqindən xəbərdar olanda Rənanın halı dəyişir, lakin ona icazə verir ki, eşqinin dalınca getsin və şahzadənin öz məşuquna çatmağı yolunda ona kömək edir, çünki özü eşqi anlayır və onunla məşuqu arasında maneə olmaq istəmir. O, sevdiyi bir kəsin məşuqəsinə çatmağı yolunda kömək edir. Onu bu işə vadar edən Əbülfəzə olan pak məhəbbəti və eşqidir. Rəna şahzadəni ölümdən qurtarır və sevdiyi qızın dalınca göndərir. Şahzadə Əbülfəz Sərvinaza qovuşanda Rəna xanım rahat nəfəs alır. Ona görə ki, Əbülfəz öz muradına çatmışdır. Lakin bundan sonra artıq yaşamağa razı deyil, çünki onun yaşamağının səbəbi şahzadə idi:

Anam yoxdur, sinəsini dağlasın,
Atam yoxdur, fərağımda ağlasın.
Qoy, kənizlər gözlərimi bağlasın,
Halal eylə, dəxi mən gedər oldum.

O, inanır ki, "Bir ürəkdə iki eşq olmaz". Bu səbəbdən zəhər içir və canını Tanrıya tapşırır. Doğrudan

da, görürük ki, xalq öz yaradıcılığında yalnız sadəcə eşq və məhəbbətlə məşğul olmamış, bəlkə bu dastanları yaratmaqla dostluğa, səmimiyyətə, paklığa və nəcabətə əhəmiyyət vermiş və onu cilalamışdır və öz məqsədinə müxtəlif zamanlarda öz zamanın ehtiyaclarına diqqət yetirməklə çatmışdır.

## “DƏDƏ QORQUD” DASTANINDA QADIN SURƏTLƏRİ

Təbiətin ən böyük möcüzəsi, əlbəttə, insan və həyatdır. Həyat həqiqəti böyük ölçüdə qeyri-müəyyən bir anlayışdır. Digər tərəfdən, həyatın ən sadə və mürəkkəb və eyni zamanda da aydın şəkli insanın vücudunda təmsil olunmuşdur. Həqiqəti həyatsız təsəvvür etmək olmaz və həyatsız həqiqət mövcud deyil və insan bu həqiqətin və bu həyatın son sirridir. Məqsəd insanın varlığıdır. O, həyata məna bəxş edir. O bir şölədir ki, kainata işıq saçır və əbədiyyəti yaradır. Bağın bağbanı insanın həyatıdır. Həyatın parlaq məşəli insanın əlindədir və onu əbədi işıq qoruyur. O, yanır və öz yanmağı ilə bu məşəli həmişə yanar saxlayır. Onun geniş sinəsində bir şölə ucalır ki, günəş onun bənzəridir və onun yanmağı ilə əbədiyyət işıqlanır.

Bu giriş “Dədə Qorqud” kitabının başlanğıcından götürülmüşdür. O, bütünlükdə insan, xüsusilə onun dəyərli bir hissəsi olan qadının varlığının tərifi haqqındadır. Çünki insanı və deməli, onun həyatını yaradan anadır və bütün insanlar anadan doğulmuşlar. İnsanlar ananın qucağında böyümüşlər. Onların dayəsi də odur. Lakin burada qadının başqa bir vəzifəsinə, yəni kişinin arvadı olmaq vəzifəsinə də toxunulur. “Dədə Qorqud” dastanı türk mədəniyyətinin ən qədim əsəridir. Onun on iki boyunun hər birində verilmiş qadın surətləri hər cəhətdən diqqətəlayiqdir və böyük maraq doğurur. Bu kitabda kişi qəhrəmanlarla birlikdə qadın qəhrəmanlar da mövcuddur. “Dədə Qorqud”dakı qadın surətləri müsbət surətlərdir. Dastandakı bəzi epizodlara diqqət yetirək:

Domrul surəti bu kitabın on iki boyundan birinin qəhrəmanıdır. O, qüvvətli bir igiddir. Bir gün Domrul onun düşərgəsinin yaxınlığında çadır qurmuş bir karvanın nalə və fəryadını eşidir. Maraqlanıb öyrənir ki, Əzrayıl Allah-taalanın əmri ilə göydən düşərək cavan bir adamın canını almışdır. Ona görə də ölənin yaşlı anası və gənc arvadı ağlayırlar. Domrul bu xəbərdən narahat olur və Əzrayılı axtarmağa başlayır. O, Əzrayılla döyüşmək, insanları onun şərindən qurtarmaq üçün Allah-taaladan xahiş edir ki, Əzrayılı ona göstərsin. Domrulun bu xahişi Allah-taalanın dərgahına xoş getmir və Əzrayıla əmr edir ki, onun canını alsın və nəfəsini kəssin. Bir gün Domrul dostları ilə şənliyə başı qarışanda Əzrayıl gəlib yetişir. Lakin onun gəlişini gözətçi başa düşmür, o üzdən Domrula xəbər vermir. Əzrayılı görən Domrulun qorxusundan rəngi-ruhu qaçır və dili tutulur. Əzrayıl özünü təqdim edir. Domrul özünü toplayaraq qəzəblənir və uca səslə Əzrayıla müraciət edərək deyir ki, sən cavanların canını alır, gəlinləri və qocaları ağladırsan. Bütün bu nalə və şivənləri törədən sənsən. Sən gözləri ağlar, ürəkləri dağlı edir və sinələri yandırırsan. Ona görə də mən ürəkləri dağlı ağsaçlı ata-anaların, gözləri ağlar yetimlərin və təzə gəlinlərin qisasını səndən alacam. Sən minlərlə arzuların həsrətini ürəklərdə qoyursan. Səni göylərdə axtarırdım, yerdə əlimə düşmüsən. Sonra qılınc çəkərək bir şahin kimi Əzrayıla hücum edir. Əzrayıl göyərçin şəklinə düşür və pəncərədən bayıra uçur. Domrul bu qələbədən xoşhal olur və deyir ki, Əzrayıl onun qorxusundan quş olub uçdu.

O biri gün Domrul at üstündə ov edərkən birdən atı büdrəyib yerə yıxılır və Domrul da yerə düşür. Bu

vaxt peyda olan Əzrayıl onun sinəsinə çökür ki, canını alsın. Domrul yalvarıb-yaxararaq deyir ki, nə üçün gizlicə can alırsan? Canları yaradan Allahdırsa, onu sən niyə alırsan? O, Allaha üz tutur və deyir ki, ey Allah, sən nə göylərdəsən, nə yerdəsən, möminlərin qəlbindəsən! Ey canları yaradan, əgər can alırsansa, özün al və bu işi Əzrayıla tapşırma! Domrulun sözləri Allahın xoşuna gəlir və Əzrayıla əmr edir ki, onun yerinə əzizlərindən birinin canını alsın və onu azad etsin. Əzrayıl Allahın əmrini Domrula bildirir. Domrul Əzrayılı atasının yanına aparır ki, bəlkə atası canını verməklə övladını xilas edə. Atası var-dövlətini verməkdən çəkinmir, lakin canını verməyə razı olmur. Anasının yanına gedilrər, anası da atası kimi hərəkət edərək canını verməkdən çəkinir. Belə olanda Domrul deyir ki, bəs, mənim heç kimim yoxdur. O, Əzrayıldan arvadı və övladları ilə vidalaşmağa icazə istəyir. Arvadı əhvalatı eşidəndə canını qurban verməyə və ərini ölümdən qurtarmağa hazır olduğunu bildirir, lakin Domrul onunla razılaşmır. Nəhayət, onlar qərara gəlirlər ki, hər ikisi birlikdə ölsünlər. Ər-arvadın bu qərarı, yəni eşq və məhəbbətin ölməz qüvvəsi Allahın fikrini dəyişir və O, Əzrayıla əmr edir ki, Domrulu və onun arvadını əfv etsin və başqasının canını alsın.

Doğrudan da, bu dastan əfsanə və əsatirlərin meyarları ilə bəyan edilmişdir. Buradakı qadın surəti necə gözəl verilmişdir! Bu dastanda qadın ata və anadan da yaxın sayılır, onun sədaqət və vəfası göstərilir. Həm də o, çətin vəziyyətdə öz ərinin yanında olur və onu tək-tənha qoymur. Doğrudan da, belə bir surət dünya ədəbiyyatında az rast gəlinən bir obrazdır.

"Dədə Qorqud" dastanının başqa bir qolunda əsərin qəhrəmanı Qanturalı layiqli arvad tapmaq üçün hər yeri dolaşır. O, elə bir qadın almaq istəyir ki, ondan qabaq yuxudan dursun, ondan qabaq düşmənə hücum etsin və ondan qabaq və artıq rəşadət və igidlik göstərsin.

Doğrudan da, Selcan bu xüsusiyyətlərə sahib olan bir qızdır. O, bir hökmdarın qızıdır. Atası onu elə bir kişiyə ərə vermək istəyir ki, üç vəhşi heyvanla vuruşub onları döyüş meydanında qətlə yetirsin. Bunun üçün meydan qurulur. Çoxlu qəhrəmanlar bu meydanda vəhşi heyvanlarla döyüşdə həlak olur və canlarını qurban verir. Meydana girən Qanturalı vəhşi heyvanlarla vuruşaraq onlara qalib gəlir və Selcana sahib olur. Lakin o, geri dönərkən yolda dərin yuxuya gedir. Bu zaman Selcan döyüş paltarı geyinərək ərinin gözətçisi olur. Düşmənlər yaxınlaşanda Selcan qəhrəmancasına onların üzərinə hücum edir, igidliklər göstərir və onları məğlub edir. Bunu görən Qanturalının heyrətdən ağzı açıq qalır. Gördüyümüz kimi, "Dədə Qorqud" dastanının bu qolunda da Selcan surəti gözəl, sədaqətli və igid qadın kimi verilmişdir. Yəni o, gözəllik və zəriflikdən əlavə, həm də şücaətli və cəsarətlidir və həyatın bütün çətinliklərində öz kişisinə şərikdir. Hətta döyüş meydanında və düşmənlərlə üz-üzə gələndə də əlindən gələni əsirgəmir. O, ağılda, dözümdə, uzaqgörənlikdə, xeyirxahlıqda imtahandan yaxşı və başıuca çıxır, pisliklərə və çirkinliklərə qarşı mübarizə edir. Belə qadın surətinə də dünya ədəbiyyatında az rast gəlinir.

Qadın insanların yaradıcısı, anasıdır və incə məxluq kimi xüsusi hörmətə layiqdir. Azərbaycan xalqının dastanlarında, əfsanələrində və bütövlükdə şifahi

xalq ədəbiyyatında kifayət qədər müsbət qadın surətləri mövcuddur.

Qiymətli "Dədə Qorqud" dastanının yaranma tarixi Azərbaycanda patriarxat icmanın yaranmasının başlanğıc dövrünə təsadüf edir. O, Azərbaycanın ən qədim yazılı abidəsi kimi qadının cəmiyyətdəki yüksək mövqeyini ortaya qoyur və onu cəmiyyətin kişi ilə bərabər hüquqlara sahib üzvü kimi təqdim edir. Bu əsərdə qadının cəmiyyətdə özünəməxsus yeri və mövqeyi vardır və o, qəbilə və ailənin 2 əsas dayağından birini təşkil edir. Kişi qəbilə və ailənin başçısı kimi həmişə qadının məsləhəti və köməyi ilə rəhbərlik vəzifəsini yerinə yetirir. "Dədə Qorqud" dastanının bütün boylarında qadınlar gözəl, mərd, döyüşkən və sədaqətli kimi təsvir olunurlar.

Dastanın "Buğac" boyunda Dirsəxanın övladı olmur. O, arvadı ilə məsləhətləşərək uşaqlarının olması üçün nəzir deyir. Onlar əmindirlər ki, yetimlərin qayğısına qalmaq, acları doydurmaq və lütləri geyindirmək lazımdır ki, Allah onlara bir uşaq bağışlasın. Belə də olur. Onların bir övladı dünyaya gəlir. Uşaq 15 yaşında ikən igidliklər göstərir və bir vəhşi heyvanla döyüşərək ona qalib gəlir. Dədə Qorqud ona "Buğac" ləqəbi verir. Ona həsəd aparanlar yalandan ona böhtan atır və onun atasına deyirlər ki, guya, Buğac məzlumlara və fəqirlərə zülm edir, başqalarının malına əl uzadır, qadınların namusuna tamah salır. Dirsəxan övladının rəftarından narahat olur və onun ölümünə razılıq verir. Nəhayət, ov zamanı Buğacı yaralayırlar. Bundan xəbər tutan ana çöldə yaralanmış övladının başı üstünə gəlir, öz südündən və çöl otlarından qarışıq bir məlhəm düzəl-

dərək övladının yarasının üzərinə qoyur, atasından xəbərsiz ona qulluq etməyə başlayır və onu sağaldır. Kafirlər boş durmayıb Dirsəxanı da aradan götürmək istəyirlər. Onlar hücum edərək onu əsir götürüb özləri ilə aparırlar.

Buğacın anası oğlunu sağaldandan sonra ondan istəyir ki, atasını düşmənlərin əlindən qurtarsın. Burğac atasını azad etmək üçün düşmənlərlə döyüşə gedir və onları məğlub edərək atasını xilas edir.

Bu dastanda Buğacın anası qayğıkeş, mehriban, ağıllı, cəsarətli və uzaqgörən bir ana olmaqla bərabər, həm də sadiq, vəfalı və fədakar həyat yoldaşıdır. O, həyat yoldaşı kimi övladı haqqında başqalarının yalan sözlərinə inanmır, əksinə, ana ürəyinə qulaq asaraq səhvə yol vermir. Bu müqəddəs qadın həyat yoldaşı Dirsəxan üçün də yaxşı məsləhətçidir, çətinliklərinin həllində onun köməkçisidir. O, vəfalı, fədəkar qadın və həyat yoldaşı, cəsarətli və mehriban ana nümunəsidir.

Dastanın "Salur Qazanın evinin yağmalanması" boyunda Qazan xan öz adamları ilə birgə ova gedir. Fürsət gözləyən düşmənlər onların diyarına hücum edərək qadınları və kənizləri əsir edib özləri ilə aparır, mallarını, heyvanlarını qənimət olaraq götürürlər. Keyfi kök düşmən bu qələbə münasibəti ilə məclis qurur və ziyafət təşkil edir və istəyir ki, tayfanın şahbanusu Burla xatun məclisin saqisi olsun, şərab paylasın, rəqs etsin və onları şənləndirsin. Lakin kənizlərin hamısı özlərini Burlaxatun kimi təqdim edir və Burla xatunu ələ vermək istəmirlər. Yağı düşmən Burla xatunu tanıya bilmir və müxtəlif hiylələrə əl atır. Axırda o, qərara gəlir ki, Burla xatunun oğlu Uruza işgəncə versinlər və anası buna dözməyərək özünü büruzə versin. Lakin Uruz ailəsinin

namusunu qorumaq xatirinə bütün əzab və işgəncələrə dözür. Bu vaxt Qazan xana xəbər çatır və o, hücum edərək düşmənləri dağıdır və qadınları xilas edir.

Bu dastanda Burla xatun qayğıkeş, uzaqgörən və mehriban bir ananın nümunəsi olmaqla bərabər, həm də namuslu, vəfalı, ağıllı və fədakar bir həyat yoldaşıdır.

"Dədə Qorqud" dastanında qadın surətini araşdırdığımız başqa bir boy "Qazan xanın oğlu Uruz"dur. Uruz on beş yaşına çatmış, ancaq ad qazanması, Dədə Qorqudun ona bir ləqəb verməsi və atasının varisliyinə layiq olması üçün hələ də bir cəsarət və hünər göstərməmişdir. Buna görə də atası qərara gəlir ki, bir müddət onu ova aparsın ki, at çapmağı, ox atmağı və döyüşməyi ona öyrətsin. Ov zamanı düşmən onlara hücum edir və onlar geri çəkilməyə məcbur olurlar. Bu arada düşmənlər Uruzu əsir götürərərk özləri ilə aparırlar. Ata öz-özünə belə düşünür ki, oğlu döyüş meydanından qaçmış, ad və ləqəb qazanmadan öz tayfasına qayıtmışdır. Qazan xanın arvadı Burlaxatun övladının sorağını alsa da, ərini tapa bilmir. Qazan xanın meyidi cəsədlər arasında da tapılmır. Bu arada Qazan xan yenidən düşmənlərə hücum etsə də, yaralanır və əsir düşür. Burlax atun döyüş paltarı geyinərək ata minir və özünün qırx kənizi ilə birgə düşmənə hücum edir. Oğuz tayfasının qəhrəmanları da hər tərəfdən düşmənə hücuma başlayırlar. Düşmən üzərində qələbədən sonra onlar Qazan xan və Uruzu xilas edib öz yurdlarına qayıdırlar. Qazan xan bu qələbənin şərəfinə böyük ziyafət məclisi qurur, çoxlu qul və kənizi azad edir.

Göründüyü kimi, dastanın bu boyunda əsas qəhrəman Burla xatundur. Burla xatun "Dədə Qorqud"

dastaının ən yaddaqalan obrazlarından biridir. O, mehriban, ağıllı bir ana, fədakar, igid və vəfalı bir həyat yoldaşının gözəl nümunəsidir. Burla xatun övladının və həyat yoldaşının xatirinə döyüş paltarı geyir və dərin bir kin və nifrət ilə düşmənə hücum edir. Bu dastanda qadın surətləri çox yaxşı təsvir olunmuşdur. Onlar kişilər kimi öz tayfa və diyarlarının müdafiəsi üçün canından keçərək düşmənlə ölüm-dirim savaşına girirlər. Bu qadınlar kişilər kimi at çapmaqda mahir, qılınc oynatmaqda cəsur və qorxmaz, ox atmaqda çevik və zirəkdirlər. Uruzun bacıları da tayfanın başqa qadınları kimi həm döyüşə gedir, həm də ev qadınıdırlar. Onların gözəlliyi kəklik və ceyranı xatırladır, lakin döyüş vaxtı onlar şir və bəbir kimi olurlar.

Qeyd etdiyimiz kimi, "Dədə Qorqud" dastanında qadınlar da kişilər qədər şərəfli və ləyaqətlidirlər. Buradakı qadın surətləri güclülərin əlində oyuncaq, hiylə və kələk üçün vasitə deyillər, əksinə, onlar kişilərə başıucalıq gətirir və onları dəstəkləyirlər.

Bu dastanda kişilərin ləyaqət və sədaqəti, onların cəsarət və şücaəti onları qadınlara layiq edir. Nalayiq kişi qadınla yaxınlığa və ona həyat yoldaşı olmağa layiq deyildir. Qadın cəmiyyətdəki özünün bütün insani hissləri, şücaəti, əxlaqı, əzəməti və mövqeyi ilə bərabər, həm də yaxşı anadır.

İndi də "Dədə Qorqud" dastanının ən maraqlı qollarından biri olan "Bamsı Beyrək" boyundakı diqqətəlayiq qadın surətini nəzərdən keçirək. Yeri gəlmişkən qeyd edək ki, dünya ədəbiyyatında buna oxşar bir çox süjetlər vardır. Beyrək Oğuz elinin igid, cəsur qəhrəmanlarından biridir. Oğuzların adətinə görə, onu

uşaqlıqda əmisi qızı Banu Çiçəklə nişanlayırlar. Beyrək gənclik yaşına çatanda öz vətəninin və elinin müdafiəsində elə igidliklər göstərir ki, kiçikdən böyüyə qədər bütün Oğuz eli ona "əhsən" deyir və el tərəfindən boz at ona hədiyyə verilir. Bir gün o, çöldə öz əmisi qızı ilə üz-üzə gəlir, lakin onlar bir-birini tanımırlar. Banu Çiçək gəncin özünün mühafizə etdiyi sahəyə daxil olmağına icazə vermir. Onlar yarışmağa qərar verirlər. Əvvəl at çapır, ox atır, nəhayət, güləşirlər. Bütün yarışmalarda Bamsı Beyrək qələbə çalsa da, Banu Çiçək də bir rəqib kimi Beyrəyin ürəyində vahimə yaradır və onlar bir-biri ilə əhdi-peyman bağlayırlar. Lakin Banu Çiçəyin qardaşı bacısının hər yoldan keçənlə evlənməyinə icazə vermir, bir sıra şərtlər qoyur. Banu Çiçək bu sınaqlardan başıuca çıxır. Beyrək də bu sınaqlarda öz ləyaqətini göstərərək uğur qazanır. Lakin düşmənlər toy gecəsi hücum edərək, bir çoxlarını qətlə yetirir, Beyrəyi isə əsir götürürlər.

Aylar keçir və Beyrəkdən bir xəbər gəlmir. Bütün Oğuz eli qara geyir və Beyrəyə yas saxlayır. İllər keçir, Banu Çiçək Bamsı Beyrəyin ardınca hər yeri axtarır, düşmənlərlə vuruşur, lakin Beyrəkdən bir xəbər çıxmır. Bu minvalla 16 il keçir. Artıq Banu Çiçək ümidini kəsir. El Yalancıgı göndərir ki, Beyrəyin sağ, ya ölmuş olması barədə bir xəbər gətirsin. O, yalandan Beyrəyin ölüm xəbərini gətirir. El buna əsasən Banu Çiçəyin ailəsindən xahiş edir ki, Banunun Yalancıqla evlənməyinə razılıq versin.

Lakin Beyrəyin ailəsi öz axtarışlarını davam etdirir. Bir gün Oğuz tacirləri Beyrəyi Yarasabayburd qalasında əsir və zəncirlənmiş halda tapırlar. Tacirlər

Banu Çiçəyin Yalancıqla evlənmə xəbərini Beyrəyə çatdırırlar. Beyrək 16 ildən sonra zindandan qaçaraq öz elinə qayıdır. O, ozan paltarı geyinir və toy məclisinə yollanır. Banu Çiçək onu tanıyır və bütün el və nəsil onun ətrafına yığışır, Yaltacuq rüsvay olur. Bundan sonra Oğuz eli düşmənə hücum edərək, Beyrəyin dostlarını da zindandan xilas edir və Beyrəklə Banu Çiçəyin toy şənliyi qurulur.

Banu Çiçək Oğuz elinin gözəl və igid qızlarından biridir. O, həyat yoldaşını özü seçir. Onun seçdiyi həyat yoldaşı elinə və obasına vəfalı olmalı, igidlikdə, pəhləvanlıqda, cəsarət və bacarıqda sınaqdan çıxmalıdır. Banu Çiçəyin özü çevik süvari, mahir atıcı və qorxmaz qılıncoynadandır. O, nişanlısı əsir düşəndə illərlə öz eşqinə sadiq qalır. Banu Çiçək vəfalı, fədakar və cəsur bir qadının əfsanəvi nümunəsidir. Bu dastanda təsvir olunmuş bütün qadın və qızların gözəl və cazibəli çöhrələri vardır. Onların dünyasında yalan və hiylə anlayışı yoxdur.

"Dədə Qorqud" dastanının başqa boylarında Yegəng, Basat, İmran, Sigərg, Rəhay Qazan, Yürəş, Oğuz Dəruni kimi digər ləyaqətli qadın surətləri də vardır. Onlar da öz gözəllikləri, sağlam düşüncələri və əməlləri ilə dastanın digər qadın surətlərinə bənzəyir.

Bəziləri belə hesab edir ki, qəhrəmanlıq dünyası kişilərin dünyasıdır, lakin "Dədə Qorqud" dastanında qadınlar da yaddan çıxarılmamışdır. Ümumiyyətlə, "Dədə Qorqud"un bütün boylarında qadınlar kişilərlə eyni məqam və mövqeyə malikdirlər. Buradakı qadınlar bir ana və bir qadın kimi böyük rəğbətə layiqdirlər. Onlar çox vaxt həyat yoldaşları üçün həqiqi dost, etibarlı arxa

və yaxşı məsləhətçidirlər. Dirsə xan və Begil adlı qəhrəmanlar öz qadınlarının müdrik məsləhətlərindən istifadə edərək, ağır təhlükələrdən salamat çıxırlar.

"Dədə Qorqud" dastanının əksər tədqiqatçıları belə hesab edirlər ki, bu dastan islam dininin zühurunun əvvəllərində Azərbaycanda yaranmışdır.

Bu dastandakı boylar Azərbaycan cəmiyyətinin patriarxat dövrünün məhsulu olsa da, onlardakı hadisə və proseslərdə qadınlar əhəmiyyətli rol oynayırlar. Buradakı qadın qəhrəmanların sayı heç də kişi qəhrəmanların sayından az deyil. On iki boydan ibarət olan dastanda iyirmi dörd qadın qəhrəman təsvir olunmuş və vəsf edilmişdir. Onlardan Banu Çiçək, Selcan Xatun və Burlaxatun şəxsən düşmənlə döyüşlərdə iştirak edir və qalib gəlirlər.

Bəhs etdiyimiz dastanda çoxarvadlılıq yoxdur. Burada arvad seçməkdə geniş yayılmış adətlərdən biri qız və oğlanın güləşməsi, at çapması, ox atması və qılınc oynatmasıdır.

## “KOROĞLU” DASTANINDA QADIN SURƏTLƏRİ

Azərbaycan xalqının zəngin ədəbi-bədii abidələrindən olan və çox sevilən “Koroğlu” qəhrəmanlıq dastanında özünəməxsus qadın surətləri diqqəti cəlb edir. Bu dastan özlüyündə epik bir əsər olsa da, burada eşq və məhəbbət, eləcə də ailə-məişət məsələləri də geniş yer tutur. “Koroğlu” dastanında həyat bünövrəsinin əsasını eşq təşkil edir, vətən və xalq yolunda mübarizə heç vaxt eşq və həyatdan kənarda qalmır və qəhrəmanların ailələri qadın və kişinin qarşılıqlı razılığı və istəyi əsasında meydana gəlir. Azərbaycan xalqının şifahi yaradıcılığının unikal nümunəsi olan “Koroğlu” dastanında qadınlar kişilərlə çiyin-çiyinə döyüşlərdə şücaət və qəhrəmanlıq göstərir, ziyafət məclislərində onlarla yanaşı otururlar. Burada təsvir olunan qadın surətləri həyat yoldaşlarının dostu, sirdaşı, arxası və köməyidir.

“Koroğlu” dastanı xalqın mübarizə və həyat arzusu və eşqinin bədii və poetik bir dillə ifadəsidir. O, bir millətin tarixi-mədəni amalının, arzu və istəklərinin güzgüsüdür. Koroğlunun qəhrəmanlığı əfsanələşsə də, bu qəhrəmanlıq reallıqlardan doğmuş və Azərbaycan xalqının mübarizə tarixini bəyan etməkdədir. Maraqlıdır ki, İranda Azərbaycan dilində ən çox satılan kitab məhz “Koroğlu” dastanıdır.

“Koroğlu” dastanının qolları igid kişilərin və qəhrəman qadınların macəra dolu qəhrəmanlıqlarını təsvir və tərənnüm edir. Bu qəhrəmanların cəngavər əzəməti ilə ülvi eşqləri bir-birini tamamlayır və onların şəxsiyyət bütövlüyünü ortaya qoyur. Məhz elə buna

görədir ki, bu dastan yarandığı vaxtdan üzü bəri hər zaman xalqın ürəyində özünəməxsus yer tutmuşdur. Dünya folklorunda "Koroğlu" dastanı ilə müqayisə edilə biləcək analoji dastanlara çox az rast gəlmək olar. Bu əvəzsiz əsər mənsub olduğu xalqın sönməz həyat həvəsini, mübariz əhval-ruhiyyəsini, azadlıq arzularını, yadların zülmünə qarşı barışmaz mübarizəsini, övladlarının mərdliyi və ləyaqətini incə detalları ilə əks etdirir. "Koroğlu" dastanı kökünü Azərbaycan xalqının məişətindən, tarix və mədəniyyətindən götürsə də, Orta Asiyadan tutmuş Avropanın mərkəzinə qədər çox böyük coğrafi məkanda yayılmışdır. Onun özbək, qırğız, başqırd, qaraqalpaq, tatar, tacik, türkmən, bolqar, macar, finland, erməni, gürcü, osmanlı variantları meydana gəlmişdir.

"Koroğlu" dastanı tarixin son dövrlərində yazıya alınsa da, qədimlik nöqteyi-nəzərdən oradakı hadisələr təqribən iki min il bundan öncəni əhatə edir. Bir çox tədqiqatçılar "Koroğlu"nun meydana çıxmasını miladdan qabaqkı yüzilliklərə aid edirlər. Bəziləri Koroğlu qiyamının tarixinin skitlər dövrünə gedib çıxdığını iddia edir, hadisələrin miladdan qabaq VI əsrdə Həxamənşi padşahı I Daranın zamanında Midiya ölkəsində baş verdiyini yazırlar. Başqa tədqiqatçılar isə bu dastanın Azərbaycanın sak tayfaları tərəfindən yaradıldığını düşünürlər. Hətta "Koroğlu" dastanının daha qabaqkı dövrə-Keyanilər dövrünə və Firdovsinin "Şahnamə" epopeyasında Əfrasiyab kimi məşhur olan Alp Ər Tanqaya aid olduğunu qeyd edirlər.

Bir sıra tədqiqatçılar Koroğlunun 552-ci ildə Yuğ türk sülaləsinin bünövrəsini qoymuş Bumin Xaqanın

prototipi olduğunu iddia edirlər. Ləyaqətli sərkərdə düşmənlər əleyhinə davada qələbədən sonra xaqanın qızını almaq üçün elçi göndərir. Lakin mənfi cavab aldıqdan sonra üsyan edərək, xaqanın qızını qaçırdır və mübarizəyə qalxır. Bəziləri də Koroğlu dastanının türklərin Sasanilər əleyhinə mübarizəsini əks etdirdiyini düşünürlər. Sultan Mahmud Qəznəvinin, hətta Babək Xürrəminin əfsanəvi Koroğlunun prototipi olduğunu irəli sürənlər də vardır.

Lakin bir çox tədqiqat və axtarışlardan sonra əldə olunan tarixi sənədlər belə deməyə əsas verir ki, "Koroğlu" dastanı Azərbaycan xalqına məxsusdur. Ancaq o, dünyanın müxtəlif millətləri arasında yayılmış və sevilmişdir. Yeri gəlmişkən qeyd edək ki, türklər yaşayan ərazilərdə, xüsusən Azərbaycanda və Anadoluda mövcud olan və "Çənlibel" adı ilə tanınan çoxlu sayda qalalar mövcuddur. Koroğlu şəxsiyyəti haqqında aparılan tədqiqatlar bunu deməyə əsas verir ki, Koroğlu tarixi şəxsiyyət kimi Şah Abbas Səfəvi və Sultan Səlim dövründə yaşamış, Təbrizdən İstanbula qədər böyük bir ərazidə mübarizə aparmışdır. Əsl "Çənlibel" qalası da Səlmasla Xoy arasında bir dərədə yerləşmişdir. Onun əsas düşmənləri bir tərəfdən Şah Abbas Səfəvi, digər tərəfdən isə Osmanlı sultanı və Anadolu hakimləri olmuşdur. Bu tarixi şəxsiyyət tarixin müəyyən zaman kəsiyində əzabkeş xalqın böyüklüyünü ortaya qoymuş, onun haqq və hüquqlarının qorunması ilə məşğul olmuşdur. Ona görə də o, xalqın yaddaşında xilaskar qəhrəman kimi qalmış, yaşamışdır. Bu motiv onun qəhrəmanlıqları haqqında bir sıra ədəbi-bədii dastan,

roman, musiqi, rəssamlıq, heykəltaraşlıq və kino əsərlərinin yaranmasına səbəb olmuşdur.

Koroğlu zəhmətkeş insanların, kasıb və məzlumların mənafeini müdafiə edən, həm də xalq arasından çıxmış bir qəhrəmandır, igidlik və cəsurluq rəmzidir. O, xalqın arzu və istəklərinin təminatçısı və tərənnümçüsüdür. Buna görə də xalq ondan ideal bir surət-insanlarin xilaskarı obrazını yaratmış və yaşatmışdır. Xalq Koroğlunun düşmənlərinin bu igidi "oğru", "qatil" və hətta "kafir" adlandırdığını, zalımların onun düşməni olduğunu və Koroğlunu aradan götürmək istədiklərini bilir. Ancaq xalqa bu da aydındır ki, Koroğlu öz xalqının dostu, hamisi və qəhrəmanıdır. Ona görə də xalq öz qəhrəmanı haqqında dastan yaratmış və bu dastan vasitəsi ilə onu əbədiləşdirmişdir. Çünki xalqın həqiqətə baxışı dəyişməz və daimidir. İki zidd ictimai baxış və dünyagörüşün qarşılaşması və üz-üzə gəlməsi qəhrəmanlıq və eşqlə dolu bir dastanın yaranmasına, əfsanə ilə tarixin çulğalaşmasına səbəb olmuş, xalqın arzu və istəklərini özündə əks etdirmişdir.

"Koroğlu" dastanından müxtəsər bəhs etdikdən sonra ondakı qadın surətlərinə diqqət yetirək. Buradakı ilk və əsas qadın surəti Koroğlunun vəfalı həyat yoldaşı Nigar xanımdır. Onun surəti bəzən Koroğlunu kölgədə qoyur və doğrudan da, "Koroğlu" dastanını Nigarsız təsəvvür etmək olmur. Nigar Koroğlunun yarı və həyat yoldaşı, Çənlibelin bütün qəhrəmanları üçün mehriban bir anadır. Koroğlu və Nigarın məhəbbət-qəhrəmanlıq macəraları bu epik dastanın ən cəlbedici hissələrini təşkil edir. Nigar Osmanlı sultanının qızıdır. Atasının bər-bəzəkli sarayı, bu saraydakı hiylə və riyakarlıqla dolu

kübar həyat onun həssas qəlbini təngə gətirmişdir. Digər tərəfdən, Koroğlunun şöhrəti və Çənlibelin sevimli icması onun qəlbində o diyara çatmaq həvəsi oyatmışdır. O, saraydakı yaltaqlıq, süni bəzək-düzək, pozğunluq və qəddarlıqdan cana gəlmişdir və abad, azad bir diyarda, igid və azad insanların yanında yaşamağı arzulayır. O, Koroğluya bir məktub yazaraq, ondan xahiş edir ki, əgər sən, doğrudan da, şöhrəti hər yerə yayılmış və sultandan qorxusu olmayan cəsur bir igidsənsə, gəl və məni özün ilə apar. Koroğlu aşıq libasında Sultanın sarayına gəlir və ağır döyüşdən sonra Nigarı öz atına mindirərək Çənlibelə gətirir. Nigar Koroğlunun həyat yoldaşı və igid cəngavəri olur. O, Koroğlunu çoxlu çətinliklərdən xilas edir və onun igidləri üçün mehriban ana və məsləhətçi olur. Nigar bütün döyüşlərdə əlinə qılınc götürüb vətəninin düşmənləri əleyhinə vuruşur.

Nigar yeganə Çənlibel qadını deyil, burada çoxlu başqa qadınlar da vardır. Onların hər biri eşq və məhəbbətlə Çənlibelə qədəm qoymuş və ölənə qədər öz kişisinin yanında qalır. Dastanların heç birində qadınla kişi arasında ixtilafa rast gəlmirik və qadınlarla kişilər arasında qarşılıqlı anlaşma şəraiti və qarşılıqlı ehtirama əsaslanan münasibətlər mövcuddur.

Çənlibel bir cəmiyyətdir. Burada hər kəsin ümumi düşməni vardır: vətən düşməni, azadlıq düşməni və zəhmətkeş xalqın düşməni. Bu cəmiyyətdə insanlar arasında fərq yoxdur, onlar bərabərhüquqludurlar. Burada hamı bir məqsədlə vuruşur. Qadınların sayı da kişilərin sayı qədərdir. Onların ən tanınmışları aşağıdakılardır:

Çənlibelin ilk qadını Nigar xanım Osmanlı sultanı Həsən xanın qızıdır. İstanbuldan gəlib və Koroğlunun həyat yoldaşıdır.

Telli xanım Ərzurum paşası Cəfər Paşanın bacısı, Dəmirçioğlunun həyat yoldaşıdır. O, aşıq Cünunu öz qardaşının zindanından azad etmək üçün kişi paltarı geyir və zindana hücum edərək gözətçiləri öldürür və Aşıq Cünunu zindandan azad edir.

Hürü xanım Qars paşasının qızı və Eyvaz Paşanın həyat yoldaşıdır.

Məhbubə xanım Rum paşasının qızı, Bəlli Əhmədin xanımıdır.

Rəfiqə xanım Əliqulu xanın qızı, Məmməd Gürcüoğlunun həyat yoldaşıdır.

Leyli xanım Rum paşasının qardaşı oğlu Topdağıdanın xanımıdır.

Şirin xanım Rum Paşasının qardaşı oğlu Dəli Həsənin ailəsidir.

Dünya xanım və Bulqar xanım Həsən paşanın qızlarıdır. Dünya xanım İsa Ballının, Bulqar xanım isə Dəli Hüseynin həyat yoldaşıdır.

Çənlibeldəki başqa qızların hər biri burada sevdikləri insanla ailə qurmuşdur. Bu qızlardan hər birinin bir dastanı var və bəzən onları gətirmək üçün qəhrəmanlar Çənlibeldən düşmən diyarına yollanır, bir çox macəra və igidlik göstərdikdən sonra istədikləri qızı əldə etməyə müvəffəq olurlar. Bu qadın və kişilərin məhəbbətləri milli dastanlara çevrilmişdir. Ona görə ki, bu qadınlardan heç biri yalnız ailə qurmaq xatirinə bu diyara ayaq basmamışlar. Çənlibel igidlərinin mübarizəsi və bu diyarda qadın və kişilərin bərabərlik xəbəri onların

qəlblərində elə bir həyəcan yaratmışdır ki, çox vaxt cah-cəlallı həyatı, riyakar və qəddarlıqla dolu rahatlığı kənara qoyaraq qorxu və ümidlə, eşq və mübarizə ilə dolu həyata üstünlük vermişlər. Bu qadınlardan çoxu hər zaman döyüş libası geyərək öz həyat yoldaşlarının yanında düşmən qalalarına hücumda iştirak edirlər.

Azərbaycan xalqının yaratmış olduğu "Koroğlu" qəhrəmanlıq dastanı əslində həm də insanların arzu və istəklərinin tərənnümüdür. Xalq Çənlibelin nəcib və namuslu qadınlarının surətlərini yaratmaqla insanları qadın hüquqları uğrunda mübarizəyə səsləyir. O, istəyir ki, qadınlara alçaldıcı nəzərlə baxılmasın və onların müsbət insani xüsusiyyətləri layiqincə dəyərləndirilsin.

Burada diqqətəlayiq əsas cəhət odur ki, insanlar ailə quracaqları şəxsi özləri seçir. Bu isə xüsusən ailədaxili normal münasibətlərin əsasını təşkil edir. "Koroğlu" dastanında ağır döyüşlərlə yanaşı, aşiqanə məclislər də təsvir olunur. Bu məclislərdə hər bir kəsin öz yeri vardır və bütün qeyrətli, namuslu insanlara hörmət bəslənilir. Bütün kişi və qadınların hər birinin bir həyat yoldaşı vardır və hər kəs öz ailəsinə bağlıdır. Çənlibelin bütün kişi və qadınlarının ürəyində bir nəfərin eşqi vardır. Onlar lazım gəldikdə çiyin-çiyinə vətəni müdafiə etmək və öz cəmiyyətlərini qorumaq üçün əllərinə silah alırlar.

"Koroğlu" qəhrəmanlıq dastanında Nigar tədbirli bir qadın surətidir. Onun tədbiri Koroğlunun qılıncından daha itidir. O, ürəyini Koroğlunun eşqinə etibar edərək onun igidliyinə və cəsurluğuna inanır və nəhayət, onun arzu və istəklərinə bağlanaraq, ömrünün sonunadək onun yarı və həmdəmi olaraq qalır. Nigar Koroğlunun həyəcan və mübarizə ilə dolu həyatında onun dərdinə

şərik olan, Çənlibelin icmasını müdafiə edən və qoruyanlardan biridir. Koroğlu igid və döyüşkən adamdır, ancaq o, bəzən səhvlərə yol verir. Yaxşı ki, onun yanında Nigar adlı bir ağıllı və tədbirli qadın var. Bütün döyüş məsələləri Nigarın nəzarəti altındadır, hətta igidlərin ruhi məsələləri də onun iti nəzərindən qaçmır. Nigarın uzaqgörən məsləhətləri igidləri xata və bəladan qoruyur və əslində Çənlibelin idarəçiliyi onun tədbirləri ilə həyata keçirilir və hər kəs onun məsləhətlərini icra edir. Bəzən Koroğlu yanlış iş görür və Çənlibelin icması çaşıb qalır və məhv olmaq təhlükəsi ilə üzləşir. Belə vaxtlarda Nigarın tədbirləri bunun qarşısını alır. Məsələn, "Keçəl Həmzə" boyunda bu bədxah adam düşmənin məkrli məqsəd və planlarını yerinə yetirmək tapşırığı ilə Çənlibelə gəlir. İgidlər Keçəl Həmzənin Çənlibeldə məskunlaşmasına icazə vermirlər, lakin Koroğlu öz rəhmdilliliyi ilə onun Çənlibeldə məskunlaşmasına icazə verir və hətta onu öz atlarına mehtər təyin edir. Keçəl Həmzə öz xain məqsədlərini yerinə yetirməyə müvəffəq olur və fürsətdən istifadə edib Düratı oğurlayır. Bu iş Çənlibeldə böyük narazılığa səbəb olur. Dəlilər Koroğlunu xudbinlikdə və başqalarının fikirlərini dəyərləndirməməkdə ittiham edirlər. Koroğlu özünün yaratdığı problemi özü aradan qaldırmaq istəyir. Buna görə tək-tənha Keçəl Həmzənin dalınca yola düşür ki, Düratı geri alsın. Lakin sonrakı hadisələr də Koroğlunun ziyanına cərəyan edir və Keçəl Həmzə Düratı verərək, Qıratı əldə edir. Koroğlu Çənlibelə qayıdarkən igidlərin böyük narazılığı və qəzəbi ilə üzləşir. Belə ki, bir çoxları özlərinin Çənlibeldə qalmağını məqsədəuyğun saymır və səbəbini onların fikirlərinə Koroğlunun əhəmiyyət ver-

məməsində görürlər. Bu münasibətlər fonunda iş o yerə çatır ki, Koroğlu deyir: “Mən heç kəsi zorla bura gətirməmişəm. Kim istəyir getsin, heç kəsə maneə yoxdur. Yol açıq və uzundur. Qaçırılan at da mənim öz malımdır və heç kəsə aid deyil”. Koroğlunun bu sözləri Çənlibelin igidlərinə elə toxunur ki, bir çoxları Çənlibeli tərk etməyə hazırlaşır. Lakin Nigar xanım onların qabağını kəsir və Çənlibeldən getmələrinə mane olur. Nigar xanım hamını sakitliyə səsləyir və Koroğlunu tənqid etməyə başlayır. O, Koroğludan küsür və öz rəftarı ilə onun qanını qaraldır. O, Koroğluya deyir ki, işi o yerə çatdırmısan ki, igidlərinə deyirsən ki, buradan getsinlər?

Nigarla bu görüşdən sonra Koroğlu yatağa düşür. Yenidən Nigar Koroğlunun qəlbini ələ alır, onu doğru yola və mübarizəyə həvəsləndirir. Nəticədə Koroğlu amansız mübarizəyə atılaraq xanların büsatını pozur, paşaların qanını tökür, Qıratı Çənlibelə qaytarır və Çənlibelin icmasında həyat öz adi halına geri dönür.

Nigar daima Koroğlunun və Çənlibelin igidlərinin qayğısına qalır ki, məbada, onlara bir xəta dəyməsin. Dastanda Kürdoğlu bir neçə dəfə xətaya yol verir və Nigar onun xətalarını islah edir. Dastanın başqa bir qolunda Koroğlu özünün oğlu ilə üzləşir (“Rüstəm və Söhrab” dastanında olduğu kimi), tanımadığı cavan iki dəfə onu məğlub edir. Lakin Nigarın gəlişi ilə Koroğlu özünü toparlayaraq cavanı yerə çırpır və belindən xəncəri çəkib onun başını bədənindən ayırmaq istəyir. Bu zaman Nigar özünü yetirir, onun əlindən tutur və mərdlik qaydalarını onun yadına salır. Sonradan məlum olur ki, öldürmək istədiyi bu gənc Koroğlunun öz övladıdır.

Nigar Azərbaycan xalqının ən gözəl və ən sevilən qadınlarının təcəssümüdür. Nigar özünün nəcibliyi, paklığı, mehribanlığı, ağlı, cəsurluğu və gözəlliyi ilə bir ideal qadın mücəssiməsidir.

Bu qəhrəmanlıq dastanlarında əhəmiyyət kəsb edən başqa bir cəhət Nigarın övladının olmamasıdır. Nigar hər kəs üçün mehriban bir anadır. Lakin onun övladı yoxdur. Analıq hissləri ilə bağlı məsələlər dastanda elə canlı təsvir olunmuşdur ki, istər-istəməz oxucunu mütəəssir edir. Övladı olmayan ana Eyvazı övladlığa götürür. Onun ana məhəbbəti vətəninin və elinin bütün qəhrəmanlarına şamildir. Nigar fədakar, müdrik və ağıllı bir ana kimi Azərbaycan anasının ümumilşdirilmiş surətidir. Ümumilikdə Çənlibel cəmiyyətində ürəyini həyat və mübarizəyə bağlayan bütün qadınlar örnək qadınlardır. Çənlibelin bütün qadınlarının qəlbində öz həyat yoldaşlarına eşq və məhəbbət vardır. Onlar səmimi və sadiq həyat yoldaşı və vətən yolunda özlərini fəda etməyə hazır olan igid qadınlardır.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının mədəniyyətinin böyük bir hissəsini şifahi xalq yaradıcılığı təşkil edir. Bu baxımdan Azərbaycan xalqının ən dolğun, real və ideal qadın surətləri də məhz şifahi xalq yaradıcılığında, o cümlədən "Dədə Qorqud", "Koroğlu", "Aşıq Qərib", "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Abbas və Gülgəz" və digər dastanlarında yaradılmışdır.

## AŞIQLARIN YARADICILIĞINDA QADIN

Qeyd etdiyimiz kimi, Azərbaycan qadınının həqiqi simasını xalqın folklor əsərlərində bütün incəlikləri ilə görmək olar. Çünki bu əsərlərdə xalq qadını istədiyi kimi təsvir edərək özünün bəyəndiyi kimi yaradır. Bütün dastanlarda (qəhrəmanlıq, qəhrəmanlıq-məhəbbət, məhəbbət) qadın surətləri dastanların məzmununa uyğun yaradılmışdır. Qəhrəmanlıq dastanlarında Banu Çiçək, Selcan Xatun, Nigar, Həcər kimi qadınlar öz füsunkar gözəllikləri ilə yanaşı, şücaət, igidlik və cəngavərliyə malikdirlər və öz vətən və ellərini düşmənlərdən azad etmək yolunda əllərinə qılınc alaraq öz igid kişiləri ilə çiyin-çiyinə döyüşə yollanırlar. Qəhrəmanlıq-məhəbbət dastanlarında Ərəb Zəngi, Rəna xanım kimi qadınların gözəllik və məhəbbəti, eləcə də igidliyi dastan qəhrəmanlarının həyəcan və təşvişlə dolu həyatıdır. Lakin məhəbbət dastanlarında Əsli, Gülgəz, Pəri, Sara kimi qadınlar öz aşiqinə qovuşmaq yolunda vəfadarlıq, sədaqət, paklıq, nəciblik, fədakarlıq göstərərək, dövrün ağrı və əzablarına dözür, öz mübarizələrini davam etdirirlər. Qeyd etmək lazımdır ki, bu cür dastanlardan hər biri xüsusi bir dövrə aiddir. Bu baxımdan qəhrəmanlıq dastanı "Dədə Qorqud" islamdan qabaqkı dövrə, "Koroğlu" dastanı XVI əsrə, "Qaçaq Nəbi" isə XIX əsrə aid edilir. Başqa dastanlar da tarixin müxtəlif dövrlərində yaranmıdır. Şübhəsiz ki, dastanların yaranmasında aid olduqları dövrlərin ictimai-siyasi, mədəni-mənəvi mühitlərinin qəhrəmanların şəxsiyyətinin formalaşmasında əsaslı təsiri olmuşdur.

Aşiqanə dastanların əsas məzmunu ayrılıq, vüsal arzusu, ümidsizlik və həsrət hisslərinin təsviridir. "Aşıq Qurbani" dastanında Pəri gözəl və vəfalı bir qızdır. O, öz sevgilisi yolunda uzun intizara, çoxlu dərdlərə və müsibətlərə dözür. (Aşıq Qurbani mükəmməl divanı əlimizə çatmış ilk azərbaycanlı aşıqıdır. O, Şah İsmayıl Xətainin sarayında şeir məclislərində iştirak etmişdir. Aşıq Qərib dastanında Şahsənəm 16 ilə yaxın bir müddətdə öz yarının qayıtmasını intizarla gözləyir. Çoxlu istəyənlərinin olmasına baxmayaraq, o, ürəyini kasıb və kimsəsiz, lakin igid Aşiq Qəribə bağışlamışdır və öz eşqinə vəfalı qalır. Aşıq Qərib Şahsənəmə qovuşmaq üçün tələb olunan cehizi hazırlamaq üçün 16 il qürbət diyarda bədii yaradıcılıqla məşğul olur və onlarla hadisə ilə üzləşir.

Yaxud da Gülgəz gözəl bir qızdır. O, ürəyini Aşıq Abbas Tufarqanlıya vermişdir. Aşıq Abbas Tufarqanlı Azərbaycanın Şah Abbas Səfəvi dövründə yaşamış və divan yaratmış böyük aşıqı olmuşdur. Gülgəzin gözqamaşdırıcı gözəlliyi ona səbəb olmuşdur ki, Şah Abbas onu öz sarayına aparıb hərəmxanasına daxil etmək istəyir. Doğrudan da, Gülgəzi şah sarayına aparırlar. Lakin Gülgəz sevdiyi Aşıq Abbas Tufarqanlını Şah Abbasdan üstün tutur. Aşıq Abbas da ürəyini ona vermişdir və öz yarına qovuşmaq üçün saz və sözlə qəddar şahla döyüşə gedir.

Aşıq Abbas Tufarqanlı karvanla Tufarqandan İsfahana yola düşür və şah sarayında saz və söz sənəti ilə şahın hiylələri ilə qarşı-qarşıya durur və öz sevgilisini bu təkbətək döyüşdə şahdan geri alaraq öz elinə qayıdır.

Bu dastanların yaranma səbəbi qadınların o dövrdə düşdükləri ümidsizlik, həsrət və əzab-əziyyətlər olmuşdur. Dastanlardakı hadisələr çox qısadır, lakin dastanları danışan aşiqlər həftələr və aylarla saz və şeirlə hekayəni davam etdirirlər. Halbuki bütün dastanı bir neçə dəqiqəyə danışmaq olar. Burada məqsəd qadınların səmimiyyət, sədaqət, paklıq, nəciblik, fədakarlıq, məhəbbət və qəhrəmanlıq düşüncələrini və bu düşüncələrdən doğan fəaliyyət və əməllərini cəmiyyətə göstərməkdir.

Bu arada "Sara" dastanına qısa bir nəzər salmaq yerinə düşər. Sara sadə Azərbaycan kəndlilərindən birinin saf və gözəl qızıdır. Bu dastanın baş verdiyi dövr Rusiya ilə İran arasında bağlanmış və Azərbaycanı ikiyə bölmüş Gülüstan və Türkmənçay müqavilələrinin bağlandıqları bir dövrə təsadüf edir. Bu müqavilələrin nəticəsində Azərbaycanın bir hissəsi Rusiyanın hakimiyyəti altına keçmişdir. Gözəl və sadə bir qız olan Sara öz anasını uşaqlıq dövründə itirmiş və atası Sultanın himayəsində böyüyüb, boya-başa çatmış və həddi-buluğa çatandan sonra könlünü öz kəndindən olan sadə bir çoban gəncə vermişdir.

Saranın sevdiyi gənc çoban qoyunları otarmaq üçün yaylağa getmişdir. Bu əsnada Arazın o tayından keçmiş bir xan onların kəndinə gəlir. O, Saranın gözəlliyi qarşısında heyrətə gəlir və belə qərara gəlir ki, nəyin bahasına olursa olsun, onu alsın. O, deyir ki, Saranı xoşluqla ona verməsələr, onu zorla alacaq və bütün kəndi alt-üst edəcəkdir. Saranın atası Sultanın ona müqavimət göstərməsinə baxmayaraq, Sara zahirən gəlin palrtarını əyninə geyməyə razılaşır. Onun məqsədi kəndlilərin qanının tökülməsini əngəlləmək, qətl və

qarətin qarşısını almaqdır. Beləliklə, Sara gəlinlik paltarını geyinir və xanın Arazın o tayında olan elinə yollanır, lakin çayın üzərindəki körpüdən keçərkən özünü coşqun çayın güclü axınına atır ki, naməhrəm əli ona dəyməsin.

Bəli, "Sara" dastanı belə sadə bir dastandır, lakin onda məhəbbət, sədaqət və eşq dünyasının incəlikləri gizlənir. Aşıqlar aylarla onun rəvayətini davam etdirirlər ki, bu sadə Azərbaycan qızının böyüklüyünü, sədaqətini, vəfadarlığını və fədakarlığını göstərə bilsinlər. Bu dastan öz zamanında bütün Azərbaycanda çox böyük əks-səda doğurdu. Azərbaycanın böyük şairi Əbülqasım Nəbati "Xan Çoban" təxəllüsü ilə Saranın sədaqət və paklığını bəyan edən gözəl bir şeir yazdı. Musiqiçilər onun əsasında mahnı bəstələdiər və məşhur "Apardı sellər Saranı" mahnısı bu cür yarandı və dillər əzbəri oldu.

## NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ QADIN SURƏTLƏRİ

Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi dünyanın nadir sənətkarlarından biridir. Onun yaradıcılığı öz yüksək bədii keyfiyyətləri və ümumbəşəri ideyaları ilə seçilir. Məhz buna görədir ki, şairin əsərləri əsrlər keçməsinə baxmayaraq, öz təravətini itirmir, söz və fikir sənətinin nadir inciləri kimi öz əhəmiyyətini qoruyub saxlayır.

Nizaminin yaradıcılığı öz forması və məzmunu, eləcə də mövzuları, ədəbi-bədii surətləri, təbliğ etdiyi ümumbəşəri mənəvi-əxlaqi ideyaları ilə hər zaman seçilmişdir. Şairin əsərlərində insanın istək və arzuları, insan hisslərinin müxtəlif çalarları, şadlıq və kədər duyğuları mahiranə ustalıqla bir-birinə qarışmışdır. Nizaminin psixoloq gözü ilə mənəvi aləmin narahatçılıqlarından və eniş-yoxuşlarından çıxartdığı fəlsəfi və əxlaqi nəticələr heyrətamizdir.

Nizaminin şəxsiyyəti Azərbaycanda XII əsrdə formalaşmış və özünəməxsus bir renesansın əsasını qoymuşdur. Şair sadə bir Azərbaycan ailəsində dünyaya göz açmış, lakin öz dühası ilə ümumdünya şöhrəti qazanmışdır. Nizami öz bəşəri ideyaları ilə bütün dünyanın şairinə çevrilmişdir. O, səmimi bəşəri baxışları, şərəfli həyatı, pak və nəcib arzuları ilə bu gün də bəşər övladının müasiridir və ona mənəvi kamillik bəxş edir. Nizami özünün ictimai-sosial, dini-fəlsəfi, əxlaqi-mənəvi, didaktik-tərbiyəvi ideyaları ilə bu gün də yaşayır və sabah da yaşayacaqdır.

Sənətkarın həyat və yaradıcılığı ilə tanışlıq onu əsərlərindəki ictimai, iqtisadi, ideoloji, mədəni məsələləri öyrənməkdən başqa, həm də onun dünyagörüşünün təşəkkül və təkamülünü öyrənmək üçün lazımdır. Çünki o, doğularaq tərbiyə aldığı bir mühitdə yaşamış və yaradıcılığa başlamışdır. Baxışlarını birgə yaşadığı adamlardan götürmüş və böyüdüyü mühitin mədəniyyətindən mütəəssir olmuşdur. Bu səbəbdən Nizaminin əsərlərindəki qadın surətlərinin araşdırılması Azərbaycan xalqının tarix, ədəbiyyat və mədəniyyətinin, xüsusən də qadına münasibətinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Nizaminin yaşadığı və yazıb-yaratdığı dövrdə Azərbaycan ədəbiyyatı və mədəniyyəti özünün çiçəklənmə dövrünü yaşamışdır. Məhz Nizaminin və onun kimi digər onlarla görkəmli alim, şair və mütəfəkkirin, eləcə də dövlət xadimlərinin fəaliyyəti və yaradıcılığı bu oyanış və intibahı mümkün etmiş və ona yeni-yeni çalarlar bəxş etmişdir. Nizami ilə bərabər Xaqani, Fələki Şirvani, Əbüləla Muizzi, Eynülüzzat Həmədani, Şəhabəddin Sührəvərdi, Mucirəddin Beyləqani, İzzəddin Şirvani, Məhsəti Gəncəvi, Qivami və başqaları kimi böyük mütəfəkkir şəxsiyyətlər də o dövr Azərbaycan intibahının formalaşması və çiçəklənməsində əhəmiyyətli rol oynamışlar.

O dövrdə Azərbaycan ədəbiyyatı özünün dünya mədəniyyətinə bəxş etdiyi böyük şəxsiyyətləri ilə qısa zamanda böyük əks-səda doğurdu və orta əsrlər Şərq intibahının əsasını qoydu. Nizami öz "Xəmsə"sini dövrün ənənəsinə uyğun olaraq, fars dilində yazdı, qəhrəmanlarını dünyanın dörd guşəsindən seçdi və fars ədəbiy-

yatında geniş əqidə və yüksək mədəniyyətin - bəşəri ideyaların tərənnümünün təməlini qoydu. Şairin təsvir etdiyi hadisələr gah Mədinədə, gah Ərəbistan yarımadasında, gah Çin və Hindistanda, bəzən isə Yunanıstanda baş verir. Şair makedoniyalı İsgəndərdən, iranlı Xosrov və Bəhramdan, ərəb Leyli və Məcnundan söz açır, lakin həmişə və hər yerdə qəhrəmanlarının cismində azərbaycanlı ruhu və qanı qaynayır. Şair böyük Makedoniyalı İsgəndəri çəkə-çəkə öz ölkəsinə gətirir və azərbaycanlı qızı Nüşabənin qarşısında baş əyməyə vadar edir. Gözəl simalı azərbaycanlı Şirin İran şahını öz mənəvi sayıqlığının təsiri altına salır. Hətta ərəb libasında olan Leyli və Məcnun türkə bənzəyir, böyük şair ana torpağına və xalqına xüsusi bir məhəbbət bəsləyir. Məhz elə buna görədir ki, onun bütün əsərlərində türkçülük ruhu hakimdir.

Nizami dastan yazan şairdir. O, eşqdən əsatir yaradır və özünün sənətini daha çox eşqi tanıtmaq və yüksəltmək üçün işlədir. Onun beş xəzinəsi əvvəldən axıra qədər eşq və aşiqlikdən danışır: "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "Sirlər xəzinəsi" və "İskəndərnamə" başdan ayağa qədər eşq və aşiqlik mövzusunda yazılmış və məhəbbəti tərənnüm etmişdir. "Sirlər xəzinəsi" və "Yeddi gözəl" poemaları kiçik və böyük həcmli eşq dastanları ilə doludur. Şairə görə, eşq yeganə iksirdir ki, insanı insanlıq məqamına çatdırır və onu paxıllıq, hərislik, təkəbbür, riyakarlıq və pulpərəstlik kimi dəyərsiz çirkablardan qoruyur. Həqiqi eşq heyvani eşqə qalib gəlməklə mümkün olacaqdır. İnsanpərvərlik, məxluqların ən şərəflisi olan insana hörmət və onun zirvəsində olan ana, qadın və həyat yoldaşı Nizami

şerinin ahəngini və məntiqi məzmununu təşkil edir. İnsan və onun taleyi Nizami yaradıcılığının mərkəzində durur. Sənətdə hərəkətin başlanğıc nöqtəsi olan Nizamiyə bu nöqteyi-nəzərdən baxılmalıdır. Nizaminin insanpərvərliyi onun bəşəri arzuları, istəkləri və baxışları ilə sıx bağlıdır. İctimai dərdlərin üstünü açmaqda və insan obrazlarının təsvirində bu böyük şairin qələminin bənzəri olmayacaqdır. O, elə bir cəmiyyəti təsvir edir ki, bir tərəfdə güclülər, şahlar və hökmdarlar cah-cəlallı saraylarda yaşlı insanların haqqı ilə eyş-işrətlə məşğuldurlar, digər tərəfdə isə Nizaminin təbiri ilə desək, bütün dünyanın nemətlərinin onların səylərinin məhsulu olmasına baxmayaraq, rəiyyətin çoxu ac və lüt həyat sürür. Belə bir cəmiyyətdə insan ölüdür:

مگر گوهر مردمی گشت خرد
که در مردمان مردمیها بمرد
به چشم اندرون مردمک را کلاه
هم از مردن مردمی شد سیاه

(Elə ki, insanlıq gövhəri xırdalandı,
İnsanlarda insanlıq öldü.
Gözdə bəbəyin içindəki gilə
Də insanlığın ölməsindən qaraldı).

Şairin dastanlarındakı qəhrəmanlar şahlar və sultanlardır. Bəli, o, öz əsərlərinin çoxunu hakimlərə hədiyyə etmişdir. Lakin nə məqsədlə? Onun hədiyyə etdiyi əsərlər həqiqətdə ittihamnamələrdir. Şair hakimləri haqq və ədalət yoluna döndərmək üçün öz əsərlərini onlara bağışlamışdır. Maraqlısı budur ki, Nizaminin

təsvir etdiyi hakim surətləri çox zaman zalım və zülmkar olsa da, onların arvadlarının surətləri cazibəli, gözəl və xeyirxahdır. Şirinin hakimiyyəti illərində şəhərlilərdən bac və kəndlilərdən xərac alınmırdı. Bu səbəbdən elə nemət bolluğu yaranmışdı ki, bir buğda dənəsi yüzdən artıq dən verir, "qırğı çöl kəkliyi ilə bir uçur", "qurd qoyunla bir yerdən su içirdi". Bütün bunları təsvir edən şair belə bir nəticəyə gəlir ki:

نیت چو نیک باشد پادشا را
گهر خیزد بجای گل گیاه را

(Əgər padşahın niyyəti yaxşı olarsa,
Gül, bitki əvəzinə, yerdən gövhər göyərər).

Hakimi Nüşabə adlı bir qadın olan qədim Bərdə diyarı bu hökmran qadının ədalətinin kölgəsində çox gözəl və abad bir məkana çevrilmişdir. Oranın sakinləri iztirab və qüssə məfhumunu bilmirlər: "Orada şadlıqdan başqa bir şey tapmaq olmaz". "Əgər quş südü lazım olardısa, orada var". Bütün bunlar ədalətin nəticəsində mümkün olmuşdur:

همانا که آن ر...تنی های چست
نه از دانه، از دامن عدل رست

(Həqiqətən, göyərən bitkilər,
Toxumdan yox, ədalətin ətəyindən göyərər).

Nizami Gəncəvinin ideya və baxışlarının öyrənilməsi üçün onun yaratdığı qadın surətlərinin araşdırılması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan "İskəndər-

namə” əsəri maraqlıdır. Bu poemada Makedoniyalı İskəndər filosof və cəngavər kimi təsvir olunur. O, əbədi həyat və ideal cəmiyyət qurmaq üçün dünyanı tutmağa çalışır. Bu böyük fatehin ölkələri fəth etməyə məntiqi əsası vardır. Onun arzusu yer üzərində haqq və ədalətin bərqərar olmasıdır. O, bir çox millətlər üçün azadlıq ərməğan etmiş və öz hakimiyyəti altında olan ölkələrin maddi və mənəvi inkişafı üçün imkanlar yaratmışdır.

Lakin bütün bunlar xoşbəxt ölkənin xalqının həyatı ilə müqayisədə cüzidir. Çünki xoşbəxt ölkədə cəmiyyətin əsasını insanların düzgün münasibətləri təşkil edir və sakinlər ideal insanlardır. Nüşabə adlı qadının taxta oturaraq hakimlik etdiyi bu cəmiyyətdə paxıllıq, xudbinlik, tamahkarlıq və bu kimi nalayiq hisslərə və hərəkətlərə yer yoxdur. İsgəndər bu adil qadının qarşısında diz çökür və arzusunu nurlu Azərbaycanda gördüyündən və arzuladığı cəmiyyəti burada tapdığından hərbi yürüşlərindən əl çəkir və vətəninə döndüyü yolda dünyasını dəyişir.

Nizami öz əsərləri ilə zəmanəsində xalqının gözləri önünə sanki bir güzgü qoyur və ona bütün yaxşılıq və yamanlıqları seyr etdirir. Şairin əsərlərinin mövzusunun tarixi olmasına baxmayaraq, o, hər yerdə baş vermiş hadisələri öz ölkəsinə gətirərək tarixi hadisələri öz dövrünün hadisələri ilə bağlayır. Bununla da xalqın düşüncə və fikirlərini, eləcə də hisslərini istədiyi səmtə yönəldir. Elə bu səbəbdən də ərəb Leyli bir azərbaycanlı qızı təsiri bağışlayır. Şirin azərbaycanlı qızı surətində canlandırılır və İsgəndər, sanki, şairin yaşadığı və yaratdığı dövrün hadisələrində iştirak edir. Xalq üçün ibrət mənbəyi olmasını istəyən şair əfsanəni tarixlə bağlayr. Şairin seçdiyi mövzular zülm, hakimiyyət, zəh-

mətkeşlərin hüquqları, cəmiyyətin yarısını təşkil edən qadınların azadlıq və ləyaqətləri məsələləridir. Şairin şahlara müraciəti cəsarətli və birbaşadır, bəzən bu müraciət fəryada dönür:

از صحبت پادشه بپر هیز
چون پنبه نرم و آتش تیز

(Padşahın söhbətindən uzaq ol,
O, yumşaq pambıq, kəskin atəşdir).

Nizami həm də aşiqanə məsnəvilərin əvəzedilməz ustasıdır. "Xəmsə"nin bütün poemalarında aparıcı surətlər qadın surətləridir. Yəni bütün bu əsərlərdə insan şəxsiyyəti, xüsusilə də qadın məsələsi şairin düşüncələrinin başında gəlir. Bu surətləri yaratmaqda şair elə böyük bir məharət göstərmişdir ki, sanki özü onlarla nəfəs almış, onlarla iztirab çəkmiş və onlarla birgə həyəcanlanmışdır. Əzabkeş eşq fədaisi Məcnun elə bir sevən tərki-dünyadır ki, Leylini səadətin mayası, həyatın hədəf və məqsədi bilir. Dahi şair ona haqq verir və onunla həmrəy olur. Nizami zülmət, nadanlıq və cəhalətin hakimiyyəti dövründə Məcnunun haqqını və məzlumluğunu göstərmək üçün çürümüş əxlaqi meyarları, köhnə adət-ənənələri tənqid atəşinə tutur və Məcnun təkbaşına üsyan bayrağını bütün cəmiyyətə və onun adət və ənənələrinə qarşı qaldırır. Məcnun Leylini arzulayır. Əlbəttə, bu arzu nə fiziki, nə də cismani deyil, əksinə mənəvi bir arzudur. Lakin zamanın çürümüş adət-ənənələri və qaydaları cəmiyyətin bütün insanlarının ruhunu kor etmiş və şüurunu zəhərləmişdir və belə bir cəmiyyətin qurbanı Leylidən başqası deyil. Sanki

Leylinin heç bir haqqı və hüququ yoxdur. Onu arzulayan Məcnun çarəsiz səhraya üz tutur və cəmiyyətdən qovulur. Nizami eşqdən əfsanə yaradır. Eşq onun əsərlərində insanların ruhi təkamülünün zirvəsidir. Bu eşq oyadıcı və ayıldıcı bir mənaya və ruha malikdir. Halbuki hakim dini ehkamlar da eşqi günah sayır.

Məcnunu şəfa tapmaq üçün ziyarətə gətirirlər ki, bəlkə eşqdən əlini üzə. Lakin o, belə deyir:

یا رب به خدایی خدائیت
وانگه به کمال پادشائیت
کز عشق به غایتی رسانم
کو ماند اگر چه من نمانم
از چشمه عشق ده مرا نور
وین سرمه مکن ز چشم من دور
گرچه ز شراب عشق مستم
عاشقتر از این کنم که هستم
گویند که خو ز عشق وا کن
لیلی طلبی ز دل رها کن
یا رب تو مرا به عشق لیلی
هر روز بده زیاده میلی

(Ya Rəbb, xudalığının böyüklüyünə,
Padşahlığının kamalı xatirinə
Ki, məni eşqdə son məqsədə çatdır,
Mən qalmasam da, o, qalandır.

Eşq çeşməsindən mənə nur ver
Və bu sürməni gözümdən uzaq etmə.
Eşq şərabından məst olsam da,
Olduğumdan daha artıq məst olum.

Deyirlər ki, eşq adətindən uzaqlaş,
Leyli sevgisini ürəyindən kənar et.
Ya Rəbb sən mənə Leyli eşqinə,
Hər gün daha çox meyli əta et).

Nizaminin əsərlərində eşqin ictimai-əxlaqi məzmunu geniş yer tutur və şarin fəlsəfi düşüncələri ilə insanlığın şərafəti və ləyaqəti artır. Nizaminin tərənnüm etdiyi eşq elə bir iksirdir ki, insana əbədi həyat bəxş edir, onu ilahiləşdirir.

Eşqdə həm xalqın, həm də məxluqun şərhi var. Eşq insanlığın və insanpərvərliyin sinonimidir. Şübhəsiz ki, Nizami Şərq ölkələrinin müsbət qadın surəti yaratmış ilk şairidir. O, bu baxımdan, yəni qadına münasibət baxımından ənənəvi hakim düşüncədən ayrılmış və öz xalqının layiqli varis övladı kimi qadına layiq olduğu yüksək qiyməti öz dəyərli əsərləri ilə vermişdir. Nizami qadına layiq olduğu yüksək qiyməti o zaman vermişdir ki, onda qadına ikinci dərəcəli insan kimi baxılırdı. O dövrdə qadın əvvəlcə ata evində, sonra ər evində dilsiz bir kəniz idi. Kənizləri və qızları hədiyyə kimi bir şəhərdən başqa şəhərə və bir saraydan başqa saraya göndərirdilər. Bu faciəli vəziyyət insanpərvər şairi düşündürürdü və o, yaradıcılığının yarıdan çoxunu bu məsələyə həsr etdi. Şairin qəhrəmanı Leyli köhnə adət-ənənələrin qurbanıdır. Məcnunun, heç olmazsa, öz pak eşqini bəyan etməyə cürəti var idi və buna görə adını Qeysdən Məcnuna çevirdilər, lakin Leyli öz eşqini dilə gətirməyə qadir deyildi. Yaşadığı cəmiyyət bunu ona qadağan eləmişdi. Buna görə o, öz nakam eşqini qəlbində gizli saxlamağa məcbur idi. O, dərdini öz ürəyində

çəkərək onu tikə-tikə etdi və göz yaşlarını lalə və nərgizlərin üstünə səpdi.

Nizami təəssüf hissi keçirir ki, zamanın adət və ənənələri bütövlükdə qadını, onun timsalında gözəl Leylini zəlil etmişdir. Şair çalışmışdır ki, öz bədii sənətinin ecazkar qüdrəti ilə müasirlərinin mürtəce və mühafizəkar fikirlərinə təsir etsin, onları tərbiyələndirsin. Axı, nə üçün qadının taleyi belə bədbəxtliklərlə dolu olmalıdır?! O, islamdan əvvəlki tarixə və öz sələflərinin baxışlarına qayıdır və əski tarixdəki qadınların həyatını əsrinin qadınlarının həyatları ilə müqayisə edir. O, qəhrəmanı Nüşabənin həyatını və əməllərini vəsf edir. Hökmdar qadın - Bərdənin hakimi Nüşabə ana vətənini elə bir gülüstana çevirmişdir ki, böyük filosof və fateh imperator İsgəndər bu mətin və vüqarlı qızın dövləti və idarə üsulu qarşısında diz çökür. Nizami yalnız Nüşabəni təsvir etmir, onun ətrafında minlərlə qəhrəman qadın toplaşmışdır. Onlar dövlətin idarə olunmasında yaxından iştirak edirlər. Bəli, Nizami qadını belə igid və hünərli görmək istəyir. Əgər lazım olsa, qadın cəsur bir cəngavərə çevrilər və döyüş meydanlarında kişilərlə çiyin-çiyinə öz şücaət və cəsarətini nümayiş etdirər. Həqiqətən, Nizaminin əsərlərində çox gözəl türkçülük ruhu mövcuddur. Şeyx Nizami qadın surətlərini bədii və poetik bir dillə yaradır. O, öz sələflərinin qadın barəsində baxışlarını da şeirlə ifadə edir. Onun "Xəmsə"də yaratdıqları ölməz qadın surətləri "Dədə Qorqud"dakı Burlaxatun, Banu Çiçək və Selcan kimi qadın surətlərini yada salır. Sanki onun yaratdığı qadın obrazı Domrulun vəfalı qadınıdır ki, öz həyat yoldaşı yolunda ölümü qəbul etmiş və indi Leyliyə çevrilmişdir.

Nizaminin "Yeddi gözəl" poemasında əsərin qəhrəmanı Bəhram şahın qırmızı sarayda dinlədiyi qız həmin Selcan və ya Banu Çiçək deyilmi? Yaxud gözəl avazlı, nəcib və zərif davranışlı Nestəndər Cahan, Çin xaqanının İsgəndərə hədiyyə etdiyi gözəl türk qızı deyilmi? Başqa türk qızları: ağıllı Fitnə, müdrik Mariya, Şirin və başqaları. Şirin at çapması, çövkən oynaması, heyranedici gözəlliyi, zəngin mənəviyyatı və dərin zəkası ilə hər zaman yaddaşlarda qalır. Nizaminin əsərlərinin oxucuları onun yaratdığı qadın qəhrəmanların şəxsiyyətlərinin bütövlüyü qarşısında heyrətlənir. Qadınların əməllərində və rəftarlarında olan qətiyyət, nəcabət və rəşadət onların səciyyəvi xüsusiyyətlərindəndir. Nestəndər Cahan düşmənlə döyüş zamanı İsgəndərin qələbəsində fəal rol oynayır. Fitnə öz mətanəti ilə Bəhramı heyrətləndirir. Ərəstunun şagirdi Mariya hər zaman onu təəccübləndirir. Bəli, qadın qəribəliklər yaratmağa qadirdir. Qadın nadir yaradıcı qüvvəyə malikdir. Qəhrəman qadınlar ürəklərdə zərif və nəcib hissləri yaradan və yaşadan vücudlar və varlıqlardır. İnsan və insanlıq bu müqəddəs varlıqlara çox minnətdardır!

Nizami qadını şərəfli, kişilərlə bərabərhüquqlu insan kimi təqdim etmişdir. Təsvirlərində o, ən yaxşı qadın surətlərinin nümunələrini yaratmaqdan çəkinməmişdir. Nizaminin əsərlərində qadınların müsbət surətlərinin təsvirindəki uğurlar bütövlükdə Şərq ölkələri ədəbiyyatının uğuru hesab olunur və bu səbəbdən onlar Qərb şairlərinin analoji əsərlərini əsrlərlə qabaqlayır. Belə ki, Avropa ədəbiyyatı ancaq beş əsr sonra Nizaminin səsinə səs vermiş və müsbət qadın obrazları yaratmışdır.

Fərhad öz yüksək eşqi ilə Şirinin qəlbinə və hisslərinə üstün gəlir. Şirin ürəyini Xosrova bağlasa da, Fərhadın ideal eşqinə qarşı laqeyd deyildir. Şirin və Fərhad iki pararlel şəxsiyyətlərdir və bu paralellik beləcə dastanın axırına qədər davam edir. Lakin təəccüblüdür ki, Şirin Fərhadın ürəyini ovlasa da, Xosrova bağlanır! Nə üçün?! Çünki şair istəyir ki, eşqin qüdrətini göstərsin. Çünki Şirinin eşqi Xosrovu çürük bataqlıqdan və eyş-işrətdən azad edir və müsbət bir insan obrazına qədər yüksəldir. Xosrov bu eşqi ilə mənəvi inkişaf yolu keçir və yüksək əxlaqi və mənəvi keyfiyyətlər qazanır. Fərhad eşqin günəşidir. Fərhadın eşqi arzu olunan eşqin sonudur.

Günəşin parıltısı hər bir kəsi cəzb edir. Lakin qaranlıqlar arasında parıltı axtarmaq Nizaminin hünəridir. Hünər məhz zülmətdə işıq saçmaqdır. Nizami öz əsərini bu bədii arzu və istəyin həlli üçün yaratmışdır. Şeirdə Nizaminin kəşfi elə budur.

Xosrov əhli-kef və gününü xoş keçirən bir şahdır, lakin Şirinin eşqi ondan elə bir şəxsiyyət yaradır ki, əldən getmiş haqqını geri alır. Maraqlı burasıdır ki, şair onu elə nümayiş etdirir ki, hər dəfə Xosrov əyləncə bataqlığında qərq olanda, ölkəsi düşmən hücumuna məruz qalır və təkcə Şirinin eşqi Xosrovun başına ağıl qoyur və onu şərəfli həyata qaytarır. "Leyli və Məcnun" və "Xosrov və Şirin" poemaları arasında əsaslı fərq mövcuddur. Belə ki, Leyli və Məcnun bir-birlərini sevirlər və bir-birlərinə layiqdirlər. Onlar bir-birlərinə çatmasalar da, bunun müqəssiri cəmiyyətdir. Lakin Xosrov və Şirin bir-birindən fərqlidir. Şirin və Fərhad Xosrov və Şirindən daha çox bir-birinə layiqdirlər. Lakin şair elə edir ki, Şirin Xosrovla Fərhad arasında birincini seçir. O, bu

seçimi ilə böyük bir missiya yerinə yetirir və bu əməli ilə epos ədəbiyyatını zənginləşdirir. Bu seçimin səbəbini dünya ədəbiyyatında özünə mühüm yer tutmuş Fərhad və Xosrov, Xosrov və Şirin arasındakı dialoqlardan də anlamaq olar. Bu dialoqlar qısa olsalar da, geniş, dərin və şairanə bir dünyanı oxucunun gözü qarşısında açır.

Nizami allahpərəstliyi insanpərvərlik yolu ilə mümkün sayır və inanır ki, məcazi eşqsiz həqiqi eşqə çatmaq olmaz. Bu fikir şairin insanpərvərlik ruhundan qaynaqlanır. Bu arada şair, qadını qürur mənbəyi və insanlıq rəmzi hesab edir. "Xəmsə"nin bütün böyük və kiçik dastanlarında insan yaratmaq rolu qadınların öhdəsinə düşür. Leyli, Məcnun kimi mətinlik, vüqar, güzəşt və insanlıqdan bəhrələnir. Şirinin eşqi Xosrovun şəxsiyyətinin inkişafına səbəb olur. "Yeddi gözəl"in qadın surətləri qəhrəmanların inkişafı gedişində əsas rol oynayırlar.

Nizami qadını insanların anası və bəşəriyyətin bələdçisi sayır:

هزار افرین بر زن خوب رای
که ما را به مردی شود رهنمای

(Gözəl fikirli qadına min afərin
Ki, bizi kişiliyə yönləndərir).

Nizami qadınlara yüksək qiymət verir. Ona görə, kişilərdən də mərd və çətinliklərlə rastlaşanda özlərini itirməyən qadınlar olduqca çoxdur:

بسا زن نام، کانجا مرد یابی
بسا مردی که رویش زرد یابی

(Nə çox qadın olanlardan kişi taparsan,
Nə çox kişi var ki, üzünü sari görərsən).

Şair namusluluğu, paklığı, gözəlliyi və igidliyi qadının ən yaxşı hünəri sayır və kişilərin şəxsiyyətini qadının girovunda hesab edir. Şair belə hesab edir ki, tarixin məşhur kişiləri qadınların və nənələrin qucağında tərbiyə almışlar:

عصمت زن جمال شوی بود
شب چو مه یافت مه روی بود

(Qadının isməti ərinin üzüdür,
Gecə ayı tapanda ayüzlü olar).

Nizami şəxsi həyatında da öz qadınına çox yüksək dəyər vermişdir. Onun arvadı Dərbənd şəhərinin hakiminin ona hədiyyə verdiyi bir kəniz idi:

سبک روی چون بت قبچاق من بود
گمان افتاد خود کافاق من بود
همایون پیکری نغز و خردمند
فرستاده به من دارای دربند
پرندش درع و از درع آهنین تر
قباش از پیرهن تنگ آستین تر
سران را گوش بر مالش نهاده
مرا در همسری بالش نهاده
چو ترکان گشته سوی کوچ محتاج
به ترکی داده رختم را به تاراج
اگر شد ترکم از خرگه نهانی
خدایا ترک زادم را تو دانی

(Qıpçaq bütüm təki yüngül yerişli,
Afaq sevgilimin, sanki özüydü.
O, Dərbənd şahının bir töhfəsiydi,
Saf, ağıllı, gözəl gül qönçəsiydi.
Dəmir bir zirehdi əynində paltar,

Əynində donu var köynəkdən də dar.
Əğyara qəzəbli, mənə mehriban,
Könül yoldaşımdı o nazlı canan.
Türklər tək olmuşdu bir köçə möhtac,
Türklər tək elədi yurdumu tarac.
O türküm getdisə bir gün çadırdan,
Saxla türkzadəmi sən, ey yaradan!)

Bəli, şair Dərbənd hakiminin ona göndərmiş olduğu Afaqı kəniz kimi deyil, bəlkə xanım kimi qəbul etdi, ürəyini ona verdi və onunla evləndi, lakin özünün də yazdığı kimi, onu tez itirdi.

## XAQANİ ŞİRVANİNİN ƏSƏRLƏRİNDƏ QADIN SURƏTLƏRİ

Azərbaycanın böyük şairi Əfzələddin Xaqaninin əsərlərində qadın surətləri maraq doğuran məsələlərdən biridir. Xaqani hicri 504-cü ildə dünyaya gəlmişdir. Atası Əli kişi yoxsul bir dülgər, anası Rəbiyə islam dinini qəbul etmiş xristian qızı idi. Lakin onun təlim-tərbiyəsi ilə təcrübəli həkim və məşhur alim əmisi məşğul olmuşdur. Xaqani gəncliyinin ilk çağlarında Əbüləla Gəncəvinin vasitəçiliyi ilə Şirvanşahlar sarayına getmiş, qısa müddətdə saray adamlarının zövqünə uyğun qəsidələr qoşmaqla şöhrət tapmış və "Məliküş-şüəra" adına layiq görülmüşdür. Lakin saraydan və onun mühitindən üz döndərdikdən və dövrünün haqsızlıqlarını və cəmiyyətin çatışmamazlıqlarını tənqid etdikdən sonra şeirləri dünya əhəmiyyəti qazanmışdır. Xaqani saraydan üz dödərdiyi və uzaqlaşdığı üçün təqiblərə məruz qalmış, dəfələrlə əsir düşmüş və həyatının böyük bir hissəsini zindanlarda keçirmiş və Təbrizdə vəfat etmişdir.

Xaqani Azərbaycan şerinin ən görkəmli nümayəndələrindən biridir. O, hicri VI əsrdə Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Fələki Şirvani, Əbüləla Gəncəvi və başqa böyük şairlərlə birlikdə farsdilli ədəbiyyatın tarixinə türk möhürü vurmuş və bu ədəbiyyatda Azərbaycan üslubunun bünövrəsini qoymuşdur.

Xaqani ilk öncə humanist və insanpərvər şairdir. O, insan gözəlliyini mədh etmiş, bəşər övladını məxluqların ən şərəflisi kimi göstərmiş və pərəstişə layiq yeganə varlıq hesab etmişdir. O, təbiətin bütün gözəlliklərini insana xidmətdə bilərək inanmışdır ki,

insansız gözəllik mümkün deyil və insanın gözəlliyi təbiətin bütün gözəlliklərindən üstündür:

از بلبل گل پرست خوش سازتری

وز قمری نغز گوی طنازتری
در حسن ز طاووس سرافرازتری
کبکی و ز دراج خوش آوازتری

(Gülpərəst bülbüldən daha xoş avazlısan,
Gözəl danışan qumrudan daha nazlısan.
Gözəllikdə tovuzdan daha başıucasan,
Kəkliksən, turacdan daha çox avazlısan).

Xaqaninin daha çox fəlsəfi qəsidələr qoşmaqla şöhrət qazanmasına baxmayaraq, onun əsərlərində pak və səmimi insani duyğular və incə hisslərin tərənnümü mühüm yer tutur. Bu böyük sənətkar insanın ağlına, bacarığına və gücünə inanan insanpərvər bir şairdir. Cavanlıqda eşq və məhəbbət mövzusunda lirik şerlər yazmaqla başlayan şair ömrünün sonuna qədər bu ənənəsinə sadiq qalmışdır.

Şairin əsərlərində ana mövzusunun xüsusi yeri var. O, "Töhfətül-İraqeyn" əsərində öz anasının faciəsindən danışır və yazır ki, anası dəyərli bir qadın idi. O, əsirlikdə olmuş və bir kölə kimi satılaraq, vətənindən, valideynlərindən və yaxınlarından uzaq düşmüş və hətta öz dinini dəyişmişdir. Xaqani öz anasını elə hörmətlə yad edir ki, oxucu qeyri-ixtiyari olaraq onun anasının şəxsində bütün fədakar anaların simasını görür.

Xaqani, özünü çadrası qalxana bənzər bir qadının yadigarı hesab edir. Şairin anası o qədər qayğıkeş və mərhəmətli bir ana olmuşdur ki, şair yalnız uşaqlıq

dövründə deyil, yaşlı vaxtlarında da çətinliklərlə üzləşəndə ona pənah aparmışdır. Düşmənlərin tənəsi onun canını boğazına yığanda mehriban anası ona təsəlli vermişdir:

کدبانوی خاندان حکمت
مستوره دودمان عصمت
کدبانو بوده و چون زلیخا
برده شده باز یوسف آسا
صافی دل و صوفی اجتهادست
مئمن دل و مومت اعتقادست
کرد از پی مریم دل من
دل موم سپید و لفظ روغن
با طعنه جوقیان جیفه
بازوم قوی بدان ضعیفه
اه از دعوات او نبودی
کارم ز فلک چگونه بودی
شروان قرن است از آب دستش
من همچو اویس پای بستش

(Hikmət xanidanının böyük xanımı,
İsmət sülaləsinin pərdədə olanı.
Züleyxa kimi böyük xanım idi,
Yusif kiminin qulu olmuşdu.
Ürəyi saf, sufi təriqətindəndir,
Ürəyi mömin, mömin etiqadındadır.
Məryəmin ardınca mənim qəlbimi
Ağ muma, yağlı sözə çevirdi.
Canlı ölülərin tənəsindən
Qolum qüvvətlidir, o isə zəif.

Ah, onun nəsuhətləri olmasaydı,
İşim fələkdən necə olardı?
Şirvan Qərəndir, əlinin suyundan,
Mən Üveys kimiyəm, ona bağlıyam).

Şair hədsiz sevgi və məhəbbətlə anasının zəhmətlərini vəsf etməklə hamıya tövsiyə edir ki, ana qəlbinin haqqı gözlənilməlidir:

با این همه هم نگاه می دار
حقّ دل مهربان مادر
می ساز که ان زمان در آید
کار نه سر زمان مادر

(Bütün bunlarla sən gözlə,
Ananın mehriban qəlbinin haqqını.
Elə et ki, o zaman gəlib çatsın,
Ananın sağlığında o haqqı qaytarasan).

Şair anasının əzab-əziyyətinə acımış, atasnın kobud rəftarından narazılığını dilə gətirmişdir:

منبر گرفته مادر مسکینم
از دست آن مناره خونخوارش

(O qaniçən minarəsinin əlindən,
Miskin anamı minbər götürdü).

Ümumiyyətlə, ananın müqəddəs bir vücud kimi təqdim edilməsi Azərbaycan dastanlarında, xüsusən də "Dədə Qorqud"da geniş yer tutur. Burada dəfələrlə rast gəlinən "Ana haqqdır, Tanrı haqqdır" ifadəsi də bunu təsdiq edir. Heç təsadüfi deyil ki, "Aslanın erkəyi, dişisi olmaz" türk zərbül-məsəli ilk dəfə olaraq, Xaqani tərəfindən farsdilli ədəbiyyata daxil edilmişdir.

## MƏHSƏTİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ QADIN SURƏTLƏRİ

Azərbaycan yetirdiyi məşhur kişilər və qadınlarla özünü bütün dünyaya tanıtmışdır. Onların hər biri bu ölkənin millı iftixarıdır. Hər bir xalqın mədəniyyətində qadınların yeri və rolunu məhz qadınların özləri müəyyənləşdirir. Azərbaycan xalqının tarixində döyüş meydanlarında öz həyat yoldaşları, ataları və qardaşları ilə çiyin-çiyinə vuruşmuş və milli-mənəvi dəyərləri qorumuş qadınlarımız kifayət qədər olmuşdur. Xalqımızın maarif və mədəniyyətinə, ədəbiyyat və incəsənətinə misilsiz töhfələr vermiş qadınlarımızın sayı sayıla bilməyəcək qədər çoxdur. Belə xanımlardan biri də XII əsrdə Gəncədə yaşayıb yaratmış Məhsəti Gəncəvidir. O, səkkiz yüz ildən çoxdur ki, öz ədəbi-bədii yaradıcılığı və şəxsiyyəti il hər bir azərbaycanlının qürur mənbəyidir.

Məhsəti Gəncəvi hicri 570-ci ildə Gəncədə dünyaya gəlmişdir. O, Xaqani, Nizami, Fələki, Əbüləla və Raziyə Gəncəvinin müasiri olmuşdur. Azərbaycan mədəniyyətinin intibah dövrünü yaradanlardan biri olmuş şairə böyük Nizamini sarayın toruna düşməkdən xilas etmişdir.

Bu böyük şairənin həyatı əfsanəyə dönmüşdür. Məhsəti və Xətiboğlunun sevgi və məhəbbəti aşiqanə dastanların mövzusu olmuş, aşıq və xanəndələrin dillər əzbərinə çevrilmişdir. Məhsəti Gəncəvi öz rübailəri ilə şöhrət qazanmış, Şərq ədəbiyyatında Ömər Xəyyamdan sonra ən böyük rübai ustası kimi tanınmışdır. O, poeziyadakı istedadından başqa, həm də gözəl musiqişünas və mahir şahmatçı olmuşdur. Onun həyat yoldaşı Tacəddin Əmir Əhmədpur Xətib də dövrünün

adlı-sanlı və seçilib-sayılan şairlərindən idi. Sənayi Xətibin şeirlərinə nəzirələr yazmışdır. Məhsəti öz gözəlliyi, məlahətli səsi və qəlb oxşayan poeziyası ilə dillər əzbəri olmuşdur. Sultan Səncər Səlcuqi Məhsətini öz sarayına dəvət etmiş, lakin şairənin açıqfikirli olması və hər zaman məzlum və məhrum xalqı zülmkar hökmdarlardan müdafiə etməsi onu məyus etmişdir. Fəridəddin Əttarın "İlahinamə" və Dövlətşah Səmərqəndinin "Təzkirətüş-şüəra" əsərlərində bu barədə məlumatlar yer almışdır. Şəmsəddin Qeys Razi, Həmdulla Müstövfi, Əmin Əhməd Razeqi və başqaları bu Azərbaycan qadınının sənət istedadından və mətinliyindən söz açmış, ona təriflər demişlər.

Məhsəti öz əsrinin şairləri ilə yaxın ünsiyyətdə olmuşdur. Odur ki, hökmdar sarayının Xaqani Şirvaniyə qarşı zülmündən xəbərdar olan Məhsəti, Nizamini sarayla əməkdaşlıq etməkdən çəkindirmişdir. Əlbəttə, Məhsəti xanım özü də saraydan zülm görmüş və bir müddət sürgün həyatı yaşamışdır. Şairə öz şerlərində ictimai məsələlərə geniş yer vermiş, haqsızlığı, ədalətsizliyi və dövrün çatışmamazlıqlarını cəsarətlə tənqid atəşinə tutmuşdur. O, qadınların hüquqlarının dönməz müdafiəçisi olmuşdur.

Şairə öz əsərlərində qadın və kişi arasında fərq görmür, onları bərabərhüquqlu varlıqlar kimi təqdim edir və cəsarətlə yazır:

گر آتش عشق تو وزد یک سوزن
یک سو همه مرد سوزد یک سو زن

(Sənin eşqinin nəfəsi iynə qədər əssə,

Bir tərəfdə bütün kişilər, o biri tərəfdə qadınlar yanar).

O, əsərlərindən birində belə bir səhnəni təsvir edir ki, darğa küçədə bir qadını kötəkləyir və cəsur şairə bu vəziyyətə qarşı öz etiraz səsini ucaldır.

Məhsətinin daha çox etiraz etdiyi ictimai yaramazlıqlardan biri də gənc qızların yaşlı kişilər tərəfindən pulla satın alınmasıdır:

شوی زن نوجوان اگر پیر بود
تا پیر شود همیشه دلگیر بود
آری مثل است اینکه گویند زنان
در پهلوی زن، تیر به از پیر بود

(Gəncin qadını ol, əgər yaşlı olsa,
Yaşlı hər zaman sıxıntılı olar.
Bəli, məsəl var ki, qadınlar deyər:
Qadın üçün tir pirdən daha yaxşıdır).

Şairə ikiüzlülük və riyakarlıqdan bezmişdir və hər zaman belə sifətlərə qarşı kəskin etirazını dilə gətirir:

انگشت نمای خلق و خالق بودن
به زانکه به خرقه منافق بودن

(Xalqın və xaliqin məşhuru olmaq
Münafiq xirqəsi geyinməkdən yaxşıdır).

Məhsəti xanım bu məsələ ilə bağlı başqa bir əsərində riyakarlıqla əlaqədar yazır:

در کل همه شرک، روی بر خاک چه سود؟
زهری که به جان رسید تریاک چه سود؟
خود را به میان خلق زاهد کردن
با نفس پلید جامه پاک چه سود؟

(Müşriklərin ibadətindən nə olacaq?
Zəhər cana işləyəndən sonra tiryəkdən nə fayda?
Özünü xalq arasında zahid kimi göstərmək,
Çirkin nəfəsə pak libasın nə faydası var?)

Şairə başqa bir şeirində təsbehin riyakarlıq ilə bir araya qoyulmasının xoş olmadığını, əksinə, xərabatda atəşpərəstlərin tonqalının yaxşı olduğunu bəyan edir:

تسبیح و مصلای ریایی خوش نیست
زنار مغانه در خرابات خوش است

(Riya təsbihi və müsəllası xoş deyil,
Xərabatda atəşpərəst odu xoşdur).

Başqa bir əsərində ondan mədhiyyə istəyən hökmdara Məhsəti belə deyir:

شاها زمنت مدح و ثنا بس باشد
وزپیر زنی ترا دعا بس باشد
گر گاو نیم شاخ نه در خورد منت
ورگاو شدم شاخ دو تا بس باشد

(Ey şah, məndən sənə mədh və dua bəsdir,
Bir qarının sənə dua etməsi bəsdir.
Tək buynuzlu inək də minnət götürməz,
İnək olsam belə, iki buynuz mənə bəsdir).

Şairə dövranın zülmündən şikayət edir, göstərir ki, özü dünyanı dolanan fələk məni də özü ilə birlikdə fırlatmaq istəyir:

ایام بر انست که تا بتواند
یک روز مرا به کام دل ننشاند
عهدی دارد فلک که گرد جهان

خود می گردد مرا همی گرداند

(Zəmanə çalışır ki, bacardığı qədər,
Mənim kamıma bir gün də imkan verməsin.
Fələyin əhdi var ki, dünyanın ətrafına,
Özü fırlanır, məni də fırlatsın).

Məhsətinin rübailəri aşiqanə və ürəkoxşayandır. Onlardan bir neçəsinə nəzər salaq:

انها که هوای عشقی موزون زده اند
هر نیم شبی سجاده در خود زده اند
نشنیدستی که عاشقان خیمه عشق
از گردش هفت چرخ بیرون زده اند

(Onlar ki, vəznli eşq havası çaldılar,
Hər gecəyarısı səccadəni yerə saldılar.
Eşidilməmişdir ki, eşq xeyməsinin aşiqləri
Yeddi fələyin gərdişindən kənara çıxsınlar).

عشق را رازیست که
اگر عارفان برملا کنند
سر بالای دار بینند
و اگر نهان سازند

(Müdriklər aydınlatsa, eşqin bir sirri vardır,
Ariflər (onu) gizlətsələr,başlarını dar ağacında görərlər).

شب را چه خبر که عاشقان می چه کشند
وزجام بلا چگونه می زهر چشند
ار راز نهان کنند غمشان بکشد
ور فاش کنند مردمانش بکشند

(Gecədən nə xəbər var ki, aşiqlər nə çəkərlər,
Bəla camından necə zəhər meyi içərlər.

Əgər gizləsələr, qəm onları (ağuşuna) çəkər,
Əgər faş etsələr, insanlar çəkər).

اشکم ز دو دیده متصل می اید
از بهر تو ای مهر گسل می اید
زنهار بدار حرمت اشک مرا
کین قافله از کعبه دل می اید

(İki gözümdən yaş dayanmadın axır,
Ey qəlbi qıran, sənə görə axır.
Nə olar göz yaşıma hörmət qoy
Ki, bu karvan ürək Kəbəsindən gəlir).

Məhsəti çox gözəl olmuş, onun gözəlliyinin sədası hər yerə yayılmışdı. Rübailəridən birində həyat yoldaşına ("Gəncə xətibinin oğluna") müraciət edərək deyir:

من مهستی ام بر همه خوبان شده طاق
مشهور به حسن در خراسان و عراق
ای پور خطیب گنجه از بهر خدا
مگذار چنین بسوزم از درد فراق

(Mən Məhsətiyəm, bütün gözəllərin tağıyam,
Xorasan və İraqda gözəllikdə məşhuram.
Ey Gəncə xətibinin oğlu, Allah xatirinə,
Ayrılıq dərdindən qoyma beləcə yanım).

در کوی خرابات یکی درویشم
زان خم زکات بیاور پیشم
صوفی بچه ام ولی نه کافر کیشم
مولای کسی نیم، غلام خویشم

(Xərabat küçəsində bir dərvişəm,
O xumdan qarşıma zəkat gətir.
Sufi balasıyam, amma kafir deyiləm,
Kimsənin ağası deyiləm, özümün quluyam).

## HÜRUFİLİK ƏDƏBİYYATINDA QADIN SURƏTLƏRİ

Hürufilik ədəbiyyatı dini-mənəvi hürufi hərəkatı ilə bir vaxtda hicri VIII əsrdə Azərbaycanda yaranmış, bütün İranı, Yaxın və Orta Şərqi, eləcə də Kiçik Asiyanı bürümüşdür. Fəzlullah Nəimi Təbrizi tərəfindən əsası qoyulan hürufilik hərəkatı ədəbiyyatdan iti silah kimi Teymur istilasına qarşı və insanpərvərlik ideyalarının təbliği üçün istifadə etmişdir. Bu hərəkatın ideoloqları və sənətkarları feodalizm cəmiyyətinin, ictimai ədalətsizliyin, irticanın tənqidini parlaq şəkildə öz əsərlərində işıqlandırırdılar. Bu ictimai-mənəvi hərəkatda saysız-hesabsız şairlər və alimlər iştirak edirdilər. Onlar Azərbaycanın və bir çox Şərq ölkələrinin mədəniyyət və ədəbiyyatlarını öz təsirləri altına almışdılar.

Tədqiqatçıların əksəriyyətinin nəzərincə, insanpərvərlik hürufi təriqətinin yaradıcılarının ən mühüm xüsusiyyətlərindəndir. Bu mütəfəkkirlər insanın ağlını və zəkasını, yaradıcı qüvvəsinin əzəmətini dəyərləndirməklə yanaşı, onun məqamını sitayiş həddinə qədər qaldırır və insani hissləri müxtəlif çirkinliklərdən təmizləyən insanın müdrikliyini yüksək qiymətləndirirdilər. Bu ədəbiyyatda eşq mədh edilməklə yanaşı, heyvani həvəs və ehtiras rədd edilir. Onun görkəmli şairləri sırasında İmadəddin Nəsimi, Nəimi, Qasımi-Ənvar, Xəlili, Həqiqi və başqalarının adını çəkmək olar. İmadəddin Nəsimi bir insanpərvər filosof kimi öz dövrünün qabaqcıl fikir və düşüncələrinin şairi idi və əsərləri təkcə Azərbaycanın deyil, bütövlükdə Şərq mədəniyyəti və ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Hafiz onun gəlişini

mömin davamçılarına müjdə verir və aşağıdakı beyt İmadəddin Nəsimiyə işarədir:

ترکان پارسی گوی بخشندگان عمرند
ساقی بشارتی ده پیران پارسا را

(Farsca danışan türklər ömür bağışlayandır,
Saqi, fars pirlərinə müjdə ver).

Eşq və məhəbbətə, insanın yüksək arzularına, səadət və ədalətə tərəfdarlıq və ona çağırış Nəsimi şeirlərinin əsas məzmunudur. Səadət və insan gözəlliyinə pərəstiş onun şeirlərində parlaq şəkildə təcəssüm olunmuşdur. O, eşq və şəhadət şairi insanı özünün yaradıcı mərkəzi etmiş və öz sevgilisinə insanların rəmzi kimi sitayiş etmişdir. Ona görə, sənətin vəzifəsi insanın ictimai və məhəbbət mövzusu ilə məşğul olmaqdır. O, qadın gözəlliyinin təsvirini zülmkarların mədhindən min dəfə dəyərli saymışdır. Nəsimi yer üzündəki sevgilisi və realist irfandan bəhs edir. Gözəllərin məhəbbəti onun nəzərində insanın ruhi inkişafına vasitədir və bu eşqi gizlədən riyakarları və düşüncəsizləri tənqid edir. Şair yarının vəsfinə qalxır və yara çatmağın əsl yolunun eşq yolundan başqa bir yol olmadığını vurğulayır. Sözsüz ki, insanpərvər şairin ideya və fikirləri çoxlarının inancına və zövqünə xoş gəlmir və onun qətlinə səy göstərirlər. O, kafir şallağının Domokl qılıncı kimi hər bir azadfikirlinin başının üstündə olduğu bir zamanda insanpərvərlik və humanizm məktəbinin bünövrəsini qoydu, zülm çəkmiş, bəla görmüş insanların köməyinə tələsdi.

Nəsiminin əsərlərində qadın ən gözəl, ən ali məxluq və həyat gözəlliklərinin rəmzi kimi təsvir olunmuşdur. Şairə görə, qadının məlahət və gözəlliyi asimanın

gözəlliyidir və bu gözəllik insan, eşq və səadət üçün yaranmışdır. O, saraydan qaçaraq, zülmkarların mədhi yerinə, mehriban anaların və vəfalı həyat yoldaşlarının mədhinə başlayır, çünki cəmiyyətin yarısının alçaldılması və təhqir olunması onun həssas və şairanə qəlbini ağrıdır. Nəsiminin qəlbində insana və insanlığa olan bu odlu eşq şairin xalq və həyatla yaxın əlaqəsindən ilhamlanmışdır və onun şeirlərinə ruh verərək, onları çox həyəcanlı və oxunaqlı etmişdir.

Hürufilik hərəkatında qəhrəman qadınlar iştirak etmiş və onlar kişilərlə çiyin-çiyinə ideyaları uğrunda düşmənlərə qarşı vuruşmuşlar. Bu əməl zülmkarların, qəsbkarların və fitnəkarların qəzəbini daha da artırmışdır. Bu mübariz qadınlar sırasında Fəzlullah Nəiminin qızı Fatimə Nəimi də var idi. Fatimə Nəimi bu hərəkatın rəhbərlərindən hesab olunur. O, atasının və ərinin qətlindən sonra hərəkatın bayraqdarı olmuş və cəsarətlə zalımların qarşısında dayanmış və 500 nəfər məsləkdaşı ilə birgə Təbrizdə yandırılmışdı.

Fatimə Nəimi mübariz, həssas və mütəfəkkir bir şairə idi. O, da eşq və məhəbbətin, yaxşılıq və bərabərliyin pərəstişkarı idi. Fatimə odlu bir insanpərvər idi. Onun üsyankar ruhu zorakılıqlar qarşısında sınmadı və o, insanlar arasında azadlıq, dostluq, bərabərlik və ədalətin bərqərar olması uğrunda mübarizə apardı. Aşağıdakı iki beyt onun adını tarixdə əbədiləşdirmişdir:

در مسلح عشق جز نکو را نکشند
لاغر صفتان زشت خو را نکشند
گر عاشق صادقی ز کشتن مگریز
مردار بود هر آنچه او را نکشند

(Eşq döyüşündə yalnız yaxşıları öldürürlər,
Arıqüzlü, pisxasiyyətliləri öldürmürlər.
Əgər sədaqətli aşiqsənsə, öldürülməkdən qaçma,
Öldürülməyənlər murdarlardır).

# MƏŞRUTƏ İNQİLABI VƏ AZƏRBAYCAN QADINLARI

Məşrutə inqilabından qabaqkı illərdə İranda sosial-ictimai vəziyyət pisləşir, siyasi qarşıdurma güclənirdi. Cəmiyyətin ictimai, siyasi və mədəni-mənəvi sahələrində baş verən proseslər məşrutə hərəkatı üçün zəmin hazırlayırdı. Bu dövrdə qadınların da ictimai sahələrdəki fəallıqları artırdı. Bu hadisələrdən biri Nəsrəddin şah dövründə tütün məmulatlarının istehsalı və ticarətində xaricilərə hər cür üstünlüklərin verilməsi ilə bağlı insanların etiraz səslərini yüksəltməsi və onun ümumxalq hərəkatına çevrilməsi idi. Bu hərəkat İranın bir çox yerlərini bürüsə də, Təbriz şəhəri onun mərkəzi rolunu oynayırdı. Bu şəhərdə Zeynəb Paşa adlı xanım hərəkatın liderlərindən biri kimi tanınırdı. Əslində hərəkat Zeynəb Paşanın rəhbərliyi altında qadınlar tərəfindən qaldırılmış, kişilər də onlara qoşulmuşdular.

Qadınların sonrakı hərəkatı çörəyin qıtlığı ilə bağlı idi. Öncə Təbrizdə başlayan bu hərəkat sonradan bütün İranı bürüdü. Bu hərəkatda qadınlar möhtəkirlərin dükanlarını darmadağın etdilər. Növbəti mərhələdə Məşrutə hərəkatı adı ilə tarixə düşən böyük bir ictimai, iqtisadi və siyasi hərəkat bütün ölkəni silkələdi. Qadınlar bu mühüm ictimai-siyasi hərəkatda fəal iştirak edirdilər. Bu dövrün tarixçilərinin hamısı Azərbaycan qadınlarının Məşrutə hərəkatındakı fəal rollarından bəhs etmişlər. Həmin dövrdə qadınlar yalnız cəbhə arxası fəaliyyət göstərmirdilər. Onlar həm də kişi paltarları geyinərək kişilərlə çiyin-çiyinə səngərlərdə vuruşurdular. Səttarxanın dostlarından və silahdaşlarından biri olmuş Kərim

Tahirzadə Behzad "Qiyami-Azərbaycan" kitabında məşrutə inqilabının yaralı qadınlarının biri haqqında maraqlı bir əhvalat danışır:

"Bir gün cəbhədən gətirilmiş ağır yaralılardan birinin yarasını sarımaq üçün onun paltarını çıxartmaq istəyirdilər. Lakin yaralı təkid edirdi ki, onun paltarını çıxarmasınlar və qoysunlar can versin. Təəccüb etdilər. Nəhayət, Səttarxan məsləhət bildi ki, onu soyundursunlar və yarasını bağlasınlar. Yaralı çarəsizlikdən dedi ki, mən kişi deyiləm, qızam, ona görə də paltarımı əynimdən çıxarmaq istəmirəm. Səttarxanın həyəcanlı gözləri yaşla doldu və dedi: "...Mənim qızım, mən ki, hələ sağam, sən nə üçün döyüşə getdin?"

## ZEYNƏB PAŞA

Məşrutə dövrünün ən fəal qadınlarından biri də Zeynəb Paşa olmuşdur. O, dövrünün qabaqcıl dünyagörüşlü və mütərəqqi fikirli insanlarından biri kimi orta əsrlərdən qalma çürük adət-ənənələri dağıdaraq və qadınlara vurulmuş köləlik zəncirini qıraraq Təbrizin qəhrəman qadınları ilə birgə zülm və istibdad əleyhinə ayağa qalxdı, silaha sarıldı və kişilərlə çiyin-çiyinə vuruşdu, hətta onlardan da artıq şücaət və qəhrəmanlıqlar nümayiş etdirdi. O "Bibi Şah Zeynəb", "Zeynəb bacı", "Dehbaşı Zeynəb" və "Zeynəb Paşa" adları ilə tarixə düşmüşdür. Bu qəhrəman qadın öz həyatı və mübarizəsi, eləcə də ətrafına topladığı cəsur qadın silahdaşları ilə sübut etdi ki, qadınlar arasında da azadlıq yolunun mübarizləri və haqqını tələb edənlər kifayət qədərdir.

Zeynəb Paşanın adı Koroğlunun Nigarı, Nəbinin Həcəri kimi qəhrəmanlarla birgə çəkilir.

Zeynəb Paşa Təbrizin qədim Əmu Zeynəddin məhəlləsində kasıb bir ailədə dünyaya gəlmiş, ağır və çətin həyat keçirmiş və əfsanəvi həyatını xalq hərəkatına həsr etmişdir. Zeynəb Paşa ictimai-siyasi fəaliyyətə tütün və tənbəki almaqda bir ingilis şirkətinə imtiyazın verilməsinə qarşı mübarizə ilə başlamışdır. İranda imperializmə verilən bu imtiyaza qarşı Təbriz ayağa qalxan ilk şəhər olmuş və dövlətin siyasətinə qarşı müxalifət bayrağını qaldırmışdır. Bu zaman Təbrizdə 20 min nəfərlik bir izdiham tütün bazarını bağlamışdır. Dövlət məmurları güc və hədə yolu ilə bazarı açmağa çalışarkən qəflətən Zeynəb Paşa tüfənglə silahlanmış qadınlardan ibarət bir dəstə ilə görünmüş və dövlət məmurları qaçmağa başlamışlar. Zeynəbin dəstəsi çubuq, çomaq və daşla məmurları döyüb qovalayır və nəhayət bu hərəkatın bütün ölkəyə yayılması nəticəsində Nəsrəddin şah bu imtiyazın ləğvinə məcbur olur. Zeynəb Paşanın inqilabi hərəkatdakı xidmətləri Azərbaycan xalqının şanlı tarixinə qızıl hərflərlə yazılmışdır.

Zeynəb Paşanın odlu-alovlu çıxışları və xalqı zülmkarlara qarşı mübarizəyə təhriki bütün camaatın dillər əzbəri olmuşdur. O, kişilərə müraciət edərək deyirdi ki, əgər siz kişilərin zülmkarların cəzasını verməyə cürəti yoxdursa, əgər oğruların və qarətçilərin əlini kəsməkdə maldan, namusdan və hökumətdən qorxursunuzsa, qadınların çadrasını başınıza salın və evin küncündə əyləşin, mərdlikdən və mərdanəlikdən dəm vurmayın, biz sizin yerinizə zülmkarlarla vuruşarıq. Uzun illər keçməsinə baxmayaraq, indi də Zeynəb Paşanın dilindən küçə və bazarlarda oxunan, oxudulan və

dillər əzbəri olmuş aşağıdakı mahnı Azərbaycanın bu qəhrəman qadınının şücaət, cürət və mübariz əhval-ruhiyyəsindən xəbər verir:

Hökm eylədi Zeynəb Paşa,
Cümlə ünnasi-fərraşa:
Siz bazarı basın daşa,
Dəyənəyi yağlayım, gəlim.
Patavamı bağlayım, gedim.

Həmin illərdə Zeynəb Paşanın fəaliyyətinin bir hissəsi də xalqın aclıq və qıtlıq əleyhinə hərəkatına həsr edilmişdi. Məşrutə inqilabı illərində möhtəkirlik yoxsulların bəlası idi, möhtəkirlər və bahaçılar öz ciblərini doldurmaq üçün xalqı əvvəlkindən daha çox zəlillikdə soyurdular. Yoxsul camaat bir tikə çörək almaq üçün səhər sübhdən axşam düşənə qədər çörəkxanaların qabağında növbəyə dururdu. Çörəyin qıtlığı bütün İranda yoxsulların əsas problemi idi və Təbriz bu vəziyyətə qarşı qiyama başlayan ilk şəhər oldu. Təbriz qadınları Zeynəb Paşanın rəhbərliyi ilə ayağa qalxdılar və camaata cəsarət və cürət bəxş etdilər. Tarixçilər tarixin bu en kəsiyində Zeynəb Paşanın ətrafında üç min qadının toplaşdığını və ona əməli dəstək verdiyini yazırlar. Zeynəb Paşa və onun tərəfdarları möhtəkirləri ortaya çıxarır, onların anbarlarına hücum edir, arpa və buğdanı anbarlardan çıxararaq, şəhər və kənd yoxsullarına paylayırdılar. Onlar hətta Azərbaycanın hakimi Qaimməqamın anbarını ələ keçirib evini viran etmişdilər. Təbrizin qəhrəman qadınlarından otuz nəfərin öldürülməsi ilə başa çatan bu hərəkatda Zeynəb Paşanın göstərdiyi igidliklər xalqın dillər əzbəri oldu, onun

haqqında şeirlər və əfsanələr yarandı. Zeynəb Paşanın rəhbərliyi ilə Təbriz qadınlarının cəsarətli üsyan xəbəri İranın bütün qadınlarını vəcdə gətirdi. Hətta hərəkatın dalğası paytaxt Tehrana da yayıldı. Zeynəb Paşa hərəkatı İran qadınları üçün bir nümunə və onların məşrutə hərəkatında iştirakı üçün stimul idi.

Zeynəb Paşanın təşviqi ilə Azərbaycan qadınlarının möhtəkirlər əleyhinə mübarizəsi elə vüsət yaratmış və əks-səda doğurmuşdu ki, möhtəkirlərdən bəziləri cəzadan yaxa qurtarmaq üçün öz şəhər və kəndlərini tərk edirdilər. Zeynəb Paşanın mübarizəsi əslində ictimai bərabərsizlik, sinfi zülm və xüsusən qadınlara qarşı ayrı-seçkilik hallarına qarşı qiyam idi. O, şanlı tariximizdə haqsızlıqlara qarşı məzlum qadının açıq döyüşü idi.

Zeynəb Paşanın aqibəti haqqında əldə doğru-dürüst məlumat yoxdur. Onun bir karvan ilə Kərbəlaya getdiyi bildirilsə də, sonrakı taleyi naməlumdur.

## AZƏRBAYCANIN QADIN ŞAİRƏLƏRİ

Azərbaycan təzkirəçiləri və ədəbiyyat tarixi müəllifləri yüzlərlə Azərbaycan şairəsinin adını çəkmiş və əsərlərini təqdim etmişlər. Bu şairələrdən fars və türk dillərində yazılmış divanlar yadigar qalmışdır. Azərbaycan şairələrindən Məhsəti Gəncəvi (hicri VI əsr), Raziyə Gəncəvi (hicri VI əsr), Gülşad (hicri VI əsr), Fatimə Ana (hicri XI əsr), Xurşud banu Natəvan (hicri XII əsr), Heyran xanım, Fatimə xanım Kəminə, Xədicə Sultan xanım, Dilşad, Gövhər, Qönçə Bəyim, Rəncur Şahnigar xanım, Ləl Ziba xanım, Məhtab xanım, Nimtac xanım, Pərinaz, Sona Axundzadə və başqalarının adını çəkmək olar. Onlar özlərindən sonra dəyərli ədəbi-bədii əsərlər qoymuşlar. Bu şairələrlə yanaşı, müxtəlif dövrlərin aşıqları, xanəndə və sazəndələri öz yaradıcılıqları ilə xalqımızın zəngin mədəniyyətinə töhfələr vermişlər. Yüzlərlə qadın aşıqlarımızdan, o cümlədən Aşıq Nabat, Aşıq Sənəm, Aşıq Badam və başqalarının irihəcmli divanları milli ədəbiyyat və mədəniyyətimizi bəzəyən qiymətli incilərdir.

## AŞİQ PƏRİ

Aşiq Pəri Azərbaycanın ustad aşıqlarından biridir. O, hicri şəmsi 1189-cu ildə dünyaya gəlmiş və hicri şəmsi 1235-ci ildə dünyasını dəyişmişdir və özündən sonra adını əbədi yaşadacaq kamil bir divan yadigar qoymuşdur. Aşıq Pəri yoxsul və imkansız bir ailədə böyümüşdü, lakin bənzərsiz sənəti, istedadı, sədaqət və paklığına görə dövrün məşhur adamlarının diqqətini

özünə cəlb etmiş və böyük şöhrət qazanmışdır. O, Arazın sahilində dünyaya gəlmiş, lakin təhsilini sona çatdırdıqdan sonra Şuşa şəhərinə getmiş və orada öz ədəbi-bədii fəaliyyətini genişləndirərək, qadınların ədəbi məclislərini təşkil etmişdir. Onun şeirində hakimlərin zülmkarlığı kəskin tənqid atəşinə tutulmuşdur. Aşıq Pəri geniş düşüncəli, bəşəri duyğulu, mütəfəkkir və istedadlı bir aşıq olmuşdur. O, özünün gözəl və rəvan şeirləri ilə bu günə qədər Azərbaycan xalqının qəlbində layiqli bir yer tutmuşdur. Bu istedadlı xanım dövrün ictimai hərəkatlarında fəal iştirak etmiş və öz şair və alim müasirləri ilə dostluq və həmkarlıq etmişdir. Təzkirələrdə onun Mirzəcan Mərdi, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Mirzə Həsən, Əsəd bəy Vəziri kimi məşhur şairlərlə yazışma və deyişmələri barədə məlumatlar vardır. Bu təzkirələr Aşıq Pərinin şeirlərindəki ədalət, zülm əleyhinə mübarizə, məhəbbət, təbiət, sədaqət və paklığın tərənnümü mövzularından bəhs edir.

O dövrün bəzi qadın aşıqları Aşıq Ələsgər kimi tanınmış aşıqlarla deyişmişlər. Sona Axundzadə ən gözəl tərzdə vətən məhəbbətini tərənnüm etmişdir. Ziba xanım elinə, kökünə və ölkəsinin yaxşı insanlarına söz qoşmuş və oxucularının qəlbində insanlara məhəbbət hissləri aşılamışdır.

Aşıq Nabat böyük ədəbi-bədii tədbirlərdə, o cümlədən XX əsrin əvvəllərində böyük ədəbiyyat konfransının iştirakçısı olmuş və Azərbaycan mədəniyyətini müdafiə etmişdir.

## AŞİQ SƏNƏM

Aşıq Sənəm o qadın aşıqlardandır ki, ən incə və ən gözəl şeirlərdən ibarət irihəcmli divanını özündən sonra yadigar qoymuş və 1928-ci ildə keçirilən aşıqların birinci qurultayında iştirak edərək, dövrün ədiblərinin və sənətkarlarının diqqətini özünə cəlb etmişdir. Onun əsərlərinin bir çoxunda qadınların çətinliklərindən söz açılmış və cəmiyyətdə qadınlara edilən zülmə qarşı etiraz səsi yüksəldilmişdir. Aşıq Sənəm öz sazı və sözü ilə haqsızlıqlarla mübarizəyə qalxmış sənətkar qadındır.

## AŞİQ BƏSTİ

Aşıq Bəsti XIX əsr aşıqlarındandır. O, bu əsrin əvvəllərində dünyaya gəlmişdir. 17-18 yaşında ikən onunla bir çoban arasında eşq yaşanmışdır. Lakin çoban çar hökumətinə qarşı mübarizədə iştirak etdiyinə görə onun məmurları tərəfindən qətlə yetirilmişdir. Aşıq Bəsti sevgilisinin yolu ilə gedərək, onun mübarizəsini saz və söz ilə davam etdirmişdir. O, faciəli eşqindən yazır, nəhayət, öz kəndini tərk edərək, kəndbəkənd gəzir və aşıqlıq fəaliyyəti ilə məşğul olur. Bu istedadlı aşıq hicranın əlindən o qədər ağlayır ki, gözləri tutulur. Aşıq Bəsti qadın aşıqların təlim və tərbiyəsi ilə də məşğul olmuş və sənətini saz və söz sənətinə maraq göstərən gənc qızlara öyrətmişdir. O, yüz ildən artıq ömür sürmüşdür.

## BANU AĞABƏYİM

Banu Ağabəyim aşıqlıqdan başqa həm də ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. O, hicri şəmsi 1326-cı ildə qadınlar məclisinin əsasını qoymuşdur. Məqsədi ölkənin müstəqilliyini qorumaq, xarici borclara qarşı çıxmaq və xarici malların idxalının qarşısını almaq idi. Bu məclisin fəaliyyətində o dövrün bəzi tanınmış şəxsiyyətlərinin, o cümlədən Mirzə Həsən Rəşdiyyənin həyat yoldaşı da olmuşdur. Məşrutə dövrünün tarixçiləri bu məclisin üzvlərinin gördüyü işlərdən söhbət açmışlar. Bu məclis dəfələrlə çar Rusiyasının hədələri və ultimatumları ilə qarşılaşsa da, əzmkarlıq göstərmiş və milli məclis qarşısında etiraz nümayişləri keçirərək, millət vəkillərindən xarici dövlətlər qarşısında müqavimət və əzmkarlıq göstərməyi tələb etmişlər.

Azərbaycan şairlərinin bir çoxunun əsərlərində vətəni müdafiə, xalqa məhəbbət və bəşərə sevgi mövzuları aparıcı yer tutmuş, qadınların daxili aləmləri, hiss və həyəcanları ətraflı təsvir olunmuşdur. Belə sənətkarlardan biri də "Gülşad" təxəllüslü şairədir. O, təxəllüsünün əksinə olaraq, qəmgin və dərdli bir insan olmuşdur. Çünki bir müddət osmanlıların əsiri olmuş və Türkiyədə sürgün həyatı yaşamışdır. Yəqin ki, buna görə qürbət dərdi, qəm-qüssə, vətən həsrəti, ata-anadan, qohum-əqrəbadan uzaqlıq onun bütün əsərlərini qəm və dərdə bürümüşdür. Bu incəruhlu şairənin "Gülşad təsnifi" adlı divanı vardır. O, hicri qəməri XI əsrdə yaşamışdır və şeirləri yetimlərin və məzlumların kədərini ifadə edir. Onun əsir həyatı həmyerlisi beş qadınla müxtəlif şəhərlərdə keçmişdir.

## FATİMƏ XANIMANA

Fatimə Xanımana Təbrizdə şəhərində dünyaya göz açmış, təhsilini də burada almışdır. Zəmanəsinın tanınmış şəxsiyyətlərindən biri olmuş Xacə Sədrəddin Hüseyn xanın qızıdır. O, əsərlərini klassik üslubda yazmışdır. Fatmə Xanımana hicri qəməri 1088-ci ildə vəfat etmişdir. Qəbri Ağdamdadır.

## XƏDİCƏ SULTAN XANIM

Xədicə Sultan xanım Nadir şah dövründə yaşayıb-yaratmış şairələrdəndir. Onun həyatı və əsərləri haqqında "Riyazüş-süəra" ("Şairlərin bağçası") təzkirəsində məlumat verilmişdir.

## FATİMƏ XANIM KƏMİNƏ

Fatimə xanım Kəminə Azərbaycan ədəbiyyatının Məhsəti Gəncəvi, Xurşid banu Natəvan, Heyran xanım kimi görkəmli simalarından biridir. O, hicri şəmsi 1188-ci ildə Qarabağda - Şuşa şəhərində bir alim və ədib ailəsində dünyaya göz açmış və gözəl divanını yaratmaqla Azərbaycan ədəbiyyatı tarixində əbədi ad qazanmışdır. Onun ana dilində yazılmış divanında şerin bütün incəlikləri öz əksini tapmışdır. Bu divan pak insani arzu və hisslər, yüksək fəlsəfi fikirlər, eləcə də ülvi analıq duyğuları ilə doludur. Bu istedadlı şairənin əsərlərində Azərbaycanın zəngin mədəniyyəti tərənnüm edilir, xalq dastanlarından, zərbül-məsəl və hikmətli sözlərdən, canlı danışıq dilindən, eləcə də müqəddəs kitabımız Qurandan

ən yaxşı şəkildə bəhrələnərək fikirlərini gözəl və rəvan bir formada oxuculara çatdırır. Fatimə xanım Kəminə hicri şəmsi 1276-cı dünyasını dəyişmişdir.

Atası «Fəna» təxəllüsü ilə əsrin məşhur şairlərindən biri idi və Fatimə uşaqlıq çağlarından poeziya və şerləşmə mühitində böyümüş, istedad və qabiliyyətini artıraraq, atasının şair dostlarının diqqətini özünə cəlb etmişdir. Fatimənin kifayət qədər təhsili olmuşdur. Belə ki, o, Qarabağda təhsilin mövcud mərhələlərini bitirdikdən sonra təhsilini davam etdirmək üçün Türkiyəyə getmiş və dövrün elm və ədəbiyyatını mükəmməl bir şəkildə kəsb etdikdən sonra yenidən öz ana diyarına qayıtmışdır.

Atasının yaxın dostlarından olan dövrün bir çox şairləri Fatimə xanım Kəminə ilə deyişmə və şeirləşməyə başlamış və hamılıqla onun şeirinin rəvanlığını və onun istedadını etiraf edərək, ona baş əymişlər. Azərbaycanın böyük şairləri Sabit, Xani, Seyid Əzim Şirvani və atası Ağa Mirzə bəy Baba (Fəna) ona müraciətlə şeirlər yazmışlar.

Təzkirə yazanlar hamılıqla onun surətinin və əxlaqının gözəlliyindən danışmışlar, onun ləyaqətli və ciddi davranışı hər bir alim və ədibi özünə cəlb etmiş və onun əvvəldən axıra qədər eşq və irfani divanı dövrün alimlərini onunla həmahəng olmağa çağırmışdır. O, klassik Azərbaycan şerinə vəfadar olmaqla yanaşı, aşıq ədəbiyyatının şeir formalarından da istifadə etmişdir.

Fatimə xanım Kəminə həm də zəmanəsnin böyük irfan əhli olmuşdur.Onun aşiqanə nəğmələri qadın nalələrinə çevrilmiş, irfani fəryadları isə hər bir sufiyə zövq vermişdir. Bu böyük şairənin divanı Bakıda çap

olunmuşdur. Bakı çapından seçmələr tərəfimizdən İranda çap edilmişdir.

## HEYRAN XANIM

Heyran xanım Azərbaycanın qadın şairələrinin söz ustadı adlandırılmalıdır. O, Abbasəli Mirzə Qaçarın müasiri olmuş, onun həyat yoldaşı ilə yazışmış və dostluq etmişdir. Heyran xanım 1790-cı ildə dünyaya gəlmiş, Naxçıvan, Xoy və Urmiyada yaşamışdır. O, hələ sağlığında öz fitri istedadı və qabiliyyəti ilə məşhurlaşmışdır. Bu böyük şəxsiyyət 1870-ci ildə dünyasını dəyişmişdir. Heyran xanımın həyatında ən faciəli hadisə 1840-cı ildə İran-rus müharibəsinin əvvəlində baş vermişdir. Bu zaman onun nişanlısı döyüş cəbhəsinə yola düşür və bir daha geri qayıtmır. Heyran xanım illər boyu onun ölümünə inanmır, nişanlısının qayıdışının intizarını çəkir. Nişanlısının geri dönməsindən ümidini itirdikdən sonra da ölənə qədər gənclik eşqinə və məhəbbətinə sadiq qalır və ailə qurmur.

Şairənin divanı dövrünün hadisələrini təsvir edir. Rusiya ilə müharibədə qələbə arzusu ayrılıq çəkmiş bu şairənin dilindən necə də gözəl və incə bir şəkildə bəyan olunur. Onun divanını mütaliə etməklə hicran yaşamış bir qadının arzuları ilə tanış olmaq ona qarşı dərin mərhəmət və məhəbbət hissi yaradır. Bu mərhəmət hissi bəzən insanın iliyinə qədər işləyir, oxucunu şairənin qəmlərinə şərik edir. Yəqin ki, nişanlısından bir məktub almış olsaydı, daha həyəcanlı şeirlər yazardı. Heyran xanımın divanındakı qədər həzinlik çox az divanlarda müşahidə edilə bilər.

Heyran xanım həm də yaxşı bir musiqiçi idi və bir çox musiqi alətlərində ifa edirdi. Türk və fars dillərinə dərindən yiyələnmiş, hər iki dildə klassik ədəbiyyatın incəliklərinə bələd olmuşdur. Onun qəzəllərini Hafiz, Saib Təbrizi və Füzulinin qəzəlləri ilə müqayisə etmək olar. Heyran xanımın şeirlərində həssas, küsəyən, vəfalı, ümidvar və ayrılıq çəkmiş bir şairənin ürək çırpıntıları yaşayır.

Onun divanının əlyazmaları bir çox Şərq və Avropa dövlətlərinin kitabxanalarını bəzəyir və dəfələrlə müxtəlif ölkələrdə, o cümlədən İranda çap olunmuşdur. Xoşbəxtlikdən onun türkcə və farsca divanından gözəl və orijinal bir nüsxə M. Naxçıvani adına Təbriz Milli kitabxanasında mövcuddur və bu divan bir neçə dəfə Təbrizdə çap edilmiş və onu sevənlər üçün hədiyyə olmuşdur.

## XURŞİDBANU NATƏVAN

Əgər Azərbaycan mədəniyyəti və ədəbiyyatında həqiqi qadın surətləri ilə tanış olmaq istəsək, Azərbaycanın bir neçə məşhur qadınına istinad etmək lazımdır. Bu nümunəvi qadınlardan biri Xurşidbanu Natəvandır. O, Azərbaycan qadınının gözəl və dəyərli simasını tarixə yazdırmış böyük bir şəxsiyyətdir. Çünki o, təkcə ədəbi-bədii yaradıcılıqla məşğul olmamış, dövrünün ictimai işlərində də yaxından iştirak etmişdir. O, həm də vəfalı qadın, mehriban ana kimi tarixə düşmüşdür. Xurşidbanu Natəvan şərəfli, lakin dərd və məhrumiyyətlə dolu həyatı, alicənablığı, mütərəqqi baxışları, yaradıcılığı və əməli fəaliyyətləri ilə ədəbiyyat

və mədəniyyət tariximizdə ustad sənətkar və vüqarlı bir qadın kimi özünəməxsus bir yer qazanmışdır.

Xurşidbanu Natəvan Qarabağ hakimi Mehdiqulu xanın qızıdır. O, hicri şəmsi 1208-ci ildə Şuşada dünyaya gəlmişdir. İbtidai təhsilini ev müəllimlərinin yanında almış və sonra ana dili ilə bərabər fars və ərəb dillərini öyrənmiş, Şərq klassiklərinin əsərləri ilə yaxından tanış olmuşdur. Türk, fars və ərəb dillərini mükəmməl bilən şairə hər üç dildə dəyərli bədii əsərlər yaratmışdır.

Onun enişli-yoxuşlu həyatı ölkəmizin bütün insanları üçün bir nümunə və məktəbdir. Xurşidbanu Natəvanı dədə-baba qaydası ilə ərə vermişlər. Əri varlı bir adam idi, lakin Xurşidbanu onu sevmirdi. Bir müddətdən sonra Natəvan ərindən ayrılır və kasıb və imkansız, lakin məğrur və qürurlu bir kişi ilə ailə həyatı qurur.

Dul qaldığı müddətdə şairənin tənhalığı töhmət və iftiradan yan keçmədi. Lakin o, öz namusu, qeyrəti və sağlam həyat tərzi ilə dözüm və səbr nümayiş etdirərək ona şər və böhtan atanların cavabını verdi və layiqli davranışları ilə özünün qadın şərəfi və ləyaqətini müdafiə etdi.

17 yaşlı övladının ölümü onun ana məhəbbəti ilə dolu ürəyinə dağ çəkdi və onu yatağa saldı. Şairə bu itkinin acısını bütün ömrü boyu unuda bilmədi. Bu üzdən də onun yaradıcılığında hər zaman dərin hüzn və kədər olmuşdur.

Qeyd etmək yerinə düşər ki, Xurşidbanu Natəvanın nəslindən çoxlu elm və ədəbiyyat əhli çıxmışdır.

Qeyd etdiyimiz kimi, Natəvan həm də ictimai fəaliyyətlə məşğul olurdu və yaxşı təşkilatçı idi. O, Şuşa şəhərinin qadınlarından təşkil olunmuş “Məclisi-üns” adlı

ədəbi məclis yaratmış və ona rəhbərlik etmişdir. Bu ədəbi məclis Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında özünəməxsus rol oynamışdır. Çünki o, bir nümunə rolu oynadı və çox keçmədi ki, Azərbaycanın başqa yerlərində də ona oxşar məclislər yarandı və fəaliyyət göstərdi. Natəvanın dövrünün bir çox şairləri ilə poetik deyişmələri olmuşdur. Natəvan özünəməxsus bir şairə idi. O, Füzulinin üslubunda yazsa da, heç vaxt təqlid ardınca qaçmamışdır. Onun özünəməxsus üslubu formalaşmışdı. Onun müasirləri, əsasən, eşqi mədh edən şeirlər yazsalar da, o, məhəbbəti tərənnüm etməklə bərabər, əsərlərində xalqın acınacaqlı həyatını da təsvir etmişdir. O, qadının şərəf və ləyaqətini vəsf edirdi. Övladını itirmiş ana kimi ana məhəbbətini və kədərini yanar bir dillə bəyan edirdi. Bəli, Natəvan pak məhəbbətdən, ayrılıq və intizardan, yarla görüşmək arzusundan, eşq və məhəbbətdən gözəl, şairanə duyğularla bəhs edirdi. O, şeirlərində qızları onların razılığı olmadan ərə verən mühitə, qadınları məhrumiyyətə düçar edən şəraitə qarşı etiraz edirdi. O, qadınların hüquqlarının tapdalanmasından narahat olurdu. Əlbəttə, Natəvan öz etiraz və nigarançılıqları ilə maarifpərvər bir xanım kimi məzlumların ümid yeri olur. Bir çoxları ona şikayətə gəlir və "Xan qızı" deyə ona müraciət edirdilər.

Natəvan həm də xeyriyyəçi olmuş, Şuşadan Xankəndinə su xətti çəkdirmiş və o, "Xan qızı" bulağı ilə tarixə düşmüşdür. Onun nəcibliyi, gözəlliyi, səxavət və şücaətinə mahnılar qoşulmuş və dastanlar yazılmışdır.

Böyük şairə ömrünün sonlarını dünyadan vaxtsız köçmüş övladının qəmi ilə xəstə yatağında keçirmiş, lakin yenə də onun yazdığı şeirləri öz təravətini

itirməmişdir. Şairə elə şöhrət tapmışdır ki, hətta xarici səyyahlar belə onunla görüşməyə can atmışlar. Məşhur fransız yazıçısı və səyyahı Aleksandr Düma Natəvanla görüşündən çox şad olmuş və öz "Səyahətnamə"sində bu görüşdən söhbət açmışdır.

Natəvan təkcə böyük söz ustası olmamış, qədim el sənətləri, əl işləri və atçılıqla ilə məşğul olmuşdur. Onun atları dəfələrlə beynəlxalq mükafatlara layiq görülmüşdür. Ondan qalmış əl və sənət işləri indi də tamaşaya gələnləri təəccübləndirir.

Natəvan hicri şəmsi 1275-ci ildə vəfat etmişdir. Onun ölüm xəbəri bütün Azərbaycanı matəmə bürümüş, Azərbaycanda yenicə çıxmağa başlamış bütün qəzet və jurnallar ondan bəhs etmiş, onun ölümü ilə bağlı bir çox mərsiyyələr yazılmışdır. Bu böyük şairənin heykəlləri Azərbaycanın bir neçə şəhərində, o cümlədən onun paytaxtı Bakı şəhərində qoyulmuşdur.

## MÜASİR AZƏRBAYCAN ŞAİRƏLƏRİ

Hazırkı dövrü Azərbaycan şairələrinin fəaliyyətinin zirvəsi adlandırmaq olar. Çünki bu gün Azərbaycanda onlarla böyük şairə meydana gəlmişdir. Müasir dünya ədəbiyyatında onlarla müqayisə ediləcək çox az şairə tapmaq olar. Onlar Azərbaycan poeziyasını dünyanın ədəbiyyat və mədəniyyat aləmində ləyaqətlə təmsil edirlər. Bu şairələrdən bir çoxu ölkəmizin ədəbi-mədəni inkişafında və bugünkü ədəbiyyat və mədəniyyətimizin formalaşması və çiçəklənməsində əhəmiyyətli rol oynayırlar. Bu məşhurlar sırasında Mirvarid Dilbazi, Mədinə Gülgün, Hökümə Bülluri və onlarla başqalarının adını çəkmək olar. Lakin təəssüflər olsun ki, onların əsərləri ikinci vətənlərində İran Azərbaycanında hələ də kifayət qədər tanınmır. Halbuki bu əsərlər bir çox dillərə tərcümə olunmuş və dünyanın müxtəlif ölkələrinin xalqları arasında yayılmışdır.

Məşhurların bugünkü nəsli də xatırlanmağa layiqdir. Mərziyyə Əhmədi Eskuyi, Seyid Həmidə Səhər Rəiszadə, Nigar xanım və digər məşhur şairələrin dəyərli əsərlərindən danışmaq bir kitabda mümkün deyil. İnşallah, onlar başqa bir kitabın mövzusu olacaqdır.

MƏHƏMMƏD RZA KƏRİMİ

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATINDA MƏŞHUR QADINLAR

**(fars dilindən tərcümə)**

**Tərcüməçi: Afət Rüstəmova**

**Kompüter icraçısı: Nübuvvət Qarayeva**

Çapa imzalanmışdır: 19.09.2014
Kağız formatı: 60x84 1/16
Həcmi: 8,5 ç.v.; Sifariş: 391/8; Sayı: 300

Kitab "Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Keşlə qəs., N.Abdullayev küç., 12*
*Tel.: (012) 514-73-73*